RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 107 (9852) 24 may 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Türk həmrəyliyinin Avropa zirvəsi



TDT-nin yaranmasında və formalaşmasında, ümumiyyətlə, türk dövlətləri arasında əməkdaşlıq əlaqələrinin inkişafında Azərbaycanın böyük rolu var. Azərbaycan TDT-nin əsasının qoyulduğu ölkə olaraq təşkilatın fəaliyyətinin və türk respublikaları arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayır. Bu mənada respublikamızın istər xarici siyasətində, istərsə də regiondakı iqtisadi layihələrində türk dövlətlərinin maraqlarının müdafiə olunmasına xüsusi yer verilir. Bakı enerji və iqtisadi sferalarda türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsinə, onların regional və qlobal əməkdaşlığa cəlb olunmasına mühüm diqqət yetirir. Azərbaycanın təşəbbüsü ilə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastruktur olmaqla türk dövlətlərinin iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edir. Azərbaycanın enerji layihələri isə dolayısı ilə türk dövlətlərini birləşdirir, Qazaxıstan və Türkmənistanın alternativ ixrac imkanlarını artırır. Türkiyə isə tranzit ölkə kimi neft-qaz boru kəmərlərinin faydasını görür. Əlbəttə ki, bütün bunlar Azərbaycanın türk həmrəyliyinə verdiyi dəyərli töhfələrdir.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışında bu məsələlərlə bağlı ətraflı danışdı. "Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir", - deyən Prezident İlham Əliyevin çıxışında diqqətə çatdırdığı məsələlərin hər biri göstərir ki, Azərbaycanın həyata keçirdiyi layihələr türk dövlətləri arasında əməkdaşlığa nə qədər böyük töhfələr verir.

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinin nəticəsidir ki, Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil etmişdir. Orta dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır. Hazırda Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir.

Azərbaycanın indiyədək TDT təşkilatının üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoyması da respublikamızın türk dövlətləri ilə əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi böyük töhfələrindəndir.

→ 8

## İndi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaqdır



Prezident İlham Əliyev TDT-nin daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib

→ 2



## Prezident İlham Əliyevin bir tələbi ilə

### Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad edilməsindən bir il ötür

Tarixi torpaqlarımızı əzəli sahiblərinə qaytaran Qarabağın xilaskarı İlham Əliyev Bağanıs Ayrımı, Aşağı Əskiparanı, Xeyrımlı və Qızılhacılı kəndlərini qətiyyətli tələbi ilə azad etməklə bir daha dünyaya göstərdi ki, Azərbaycan bir qarış torpağının da düşmən tapdağında qalmasına heç zaman imkan verməyəcək.

"Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar", - deyə 10 may 2024-cü ildə Şuşaya köçən sakinlərlə görüşü zamanı qalib lider İlham Əliyevin söylədiyi kimi.

→ 9



## Azərbaycan OPEC plusun sadəcə bir üzvü deyil

### Bu neft təşkilatının qəbul etdiyi qərarlarda ölkəmizin də sözünün gücü var

Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin keçən il iyunun 2-də onlayn formatda keçirilən 37-ci iclasını xatırlayaq. Həmin iclasda mövcud "Əməkdaşlıq Bəyannaməsi"nin müddətinin bu il yanvarın 1-dən dekabrın 31-dək uzadılması ilə bağlı qəbul edilmiş qərarı Azərbaycan da dəstəklədi. Yeni qərar OPEC plus ölkələrində mövcud xam neft istehsal səviyyəsinin 2025-ci ildə sabit saxlanılmasını, üç müstəqil mənbə tərəfindən istehsal göstəricilərinin qiymətləndirilməsinin bu ilin noyabrın sonuna qədər uzadılmasını və həmin nəticələr əsasında 2026-cı il üçün yeni baza səviyyəsinin müəyyənləşdirilməsini nəzərdə tuturdu. Yeni qərara uyğun olaraq 2025-ci ildə Azərbaycanın 551 min barel həcmində gündəlik xam neft hasilat kvotası dəyişməz qalırdı.

→ 8

## Azərbaycan minifutbol millisi Sloveniyanı məğlub edib

Bakıda keçirilən minifutbol üzrə dünya çempionatı davam edir.

AZƏRTAC xəbər verir ki, mundialda ikinci turun görüşləri keçirilir.

A qrupunda mübarizə aparan Azərbaycan millisi Sloveniya seçməsi ilə qarşılaşıb. Milli Gimnastika Arenasında təşkil edilən matç yığmanın 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qolları Elvin Əlizadə, Mirmehdi Rzayev, Xətai Bağırov və Kamran Abdullazadə vurublar.

Elşad Quliyevin baş məşqçisi olduğu yığma mayın 21-də keçirdiyi ilk matçda Bəhreynlə 1:1 hesablı heç-heçə edib.

Komanda növbəti oyununu mayın 25-də Mavritaniya seçməsinə qarşı keçirəcək.






## Fransada etirazlar yenidən baş qaldırır

### E.Makron isə xarici ölkələrdən həbsxana kameraları icarəyə götürmək haqqında fikirləşir

Mayın 19-dan etibarən taksi sürücülərinin etiraz əlaməti olaraq həyata keçirdikləri çoxsaylı "ilbiz əməliyyatları" bütün nəqliyyatın hərəkətini iflic edib. Sürücülərin Parisdəki hər iki hava limanına gedən magistral yolları bağladıqları da bildirilir.

Bu arada bir neçə fransız fermerləri qrupu bazar ertəsindən etibarən fəaliyyətlərinə olunan tənzimləyici təzyiqin yumşaldılması tələbi ilə Paris ətrafında yol blokadaları elan edib. Bu barədə BFMTV telekanalı məlumat yayıb. Bildirilir ki, iki aqrar birliyin həmkarlar ittifaqı sənayeyə tənzimləyici təzyiqin yumşaldılmasını tələb etmək üçün etiraz planlarını açıqlayıb. Plana əsasən, fermerlər mayın 26-dan etibarən Paris ətrafındakı yolları bağlayacaqlar.

→ 12

# İndi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaqdır

## Prezident İlham Əliyev TDT-nin daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstanın daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.

Görüşdə çıxış edən Prezident **İlham Əliyev** dedi:

- Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü Azərbaycanda keçirilir. Bu, çox sevindirici haldır. Əminəm ki, belə görüşlərin davamı olacaq.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilmişdir. Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək.

Təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları göz önündədir. Biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır. Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq.

Bizim ölkələrimizdə əhali artır. Azərbaycana gəldikdə, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə bizim əhalimiz təqribən 7 milyon idi, indi 10 milyonu ötüb. Bütün üzv ölkələrdə buna oxşar dinamika müşahidə olunur. Əhalimiz gəncdir, dinamikdir, öz tarixi köklərinə bağlıdır. Ona görə biz təşkilat çərçivəsində iqtisadiyyat, nəqliyyat, enerji məsələləri ilə yanaşı, mütləq ortaq köklərimiz, ortaq tariximiz haqqında geniş danışmalıyıq.

Tarixdə müxtəlif məqamlar olub. Biz müəyyən dövr ərzində bizdən asılı olmayan səbəblərə görə bir-birimizdən ayrı düşmüşdük. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi bizi yenə də bir araya gətirdi. Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir.

O ki qaldı, daxili işlər orqanlarının birgə fəaliyyətinə, təbii ki, buna böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni heç kim bundan sığortalı deyil. Ona görə daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması, əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir. Təşkilata üzv ölkələrin daxili işlər orqanlarının bir araya gəlməsi, müntəzəm olaraq görüşlərin keçirilməsi, fikir mübadiləsi, təcrübə mübadiləsi, informasiya mübadiləsi aparılması böyük önəm daşıyır.

Təbii ki, bizim əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir. Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir. Yenə də deyirəm, bunlar üçün bütün imkanlar var. Əgər olmasaydı, mən bu barədə danışmazdım.

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrin xalqlarına öz hörmətimi bildirirəm və Sizə uğurlu iş və gözəl nəticələr arzulayıram.

* * *

Sonra çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** dedi:

- Əvvəlcə, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, bu, daxili işlər nazirlərimizin ikinci görüşüdür. Birincisi keçən il Qırğızıstanda olub. Siz qeyd etdiniz ki, hörmətli nazirlərimiz görüşürlər, onlar daha çox mahiyyətə diqqət yetirirlər. Bu gün də Kommünike hazırlanıb. Bundan sonra da belə görüşlər keçiriləcək və orada daxili işlər nazirlərinin fəaliyyətinin əsas istiqamətlərini ehtiva edən Kommünike qəbul olunacaq. Bu, banditizm, terrorizm, cinayətkarlıq və sairə ilə mübarizə daxil olmaqla nazirlərimizin fəaliyyətinin bütün istiqamətlərini əhatə edir.

İki gün əvvəl vaxtilə Sizin təşəbbüskarı olduğunuz qeyri-rəsmi Zirvə görüşümüz keçirildi. O, mahiyyət etibarilə qeyri-rəsmi deyil, daha çox rəsmi idi. Orada da hüquq-mühafizə orqanlarımızın işindən bəhs edildi. Siz də qeyd etdiniz ki, keçən il ilk dəfə Şuşada ali məhkəmə instansiyalarımızın görüşü oldu. Ali məhkəmələrin sədrləri bu yaxınlarda - iki həftə əvvəl Antalyada yenidən toplaşdılar və nizamnamə qəbul etdilər. Orada da bütün fəaliyyət istiqamətləri göstərilib. Bizdə artıq baş prokurorlar, notarial orqanlar, ədliyyə nazirlərinin platformaları yaradılıb, keçən il ədliyyə nazirləri də Astanada bir araya gəldilər.

Bir sözlə, bütün hüquq-mühafizə bloku institutlaşmaya başlayıb, artıq ilk addımlar atılır. Sizin parlamentdəki inaqurasiya nitqinizdə qısaca qeyd etdiyiniz kimi, hamı bunu dəstəkləyir. İndi Sizin dediyiniz kimi, bizim təşkilat daha güclü ola bilər. Biz həqiqətən nadir beynəlxalq təşkilatıq. Siz qeyd etdiyiniz kimi, 15 il əvvəl qəbul edilən Naxçıvan sazişində deyilir ki, bizi məhz tarixi köklər, mədəniyyətimiz, dil, din birləşdirir. Çünki başqa belə bir təşkilat yoxdur və bizim hamımızın vəzifəsi yaradılmış platformalarla onu gücləndirməkdir.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizi və ölkənizin xalqını ürəkdən təbrik edirəm.

Dost və qonşu xalqlarımızın ortaq tarixi, onlar arasındakı qırılmaz bağlar ölkələrimizin münasibətlərinin inkişafı üçün qiymətli sərmayə yaratmışdır.

İran İslam Respublikası əlaqələri ortaq maraqlar çərçivəsində strateji tərəfdaşlıq səviyyəsinə qədər genişləndirmək və yüksəltmək əzmindədir, bu baxımdan nəqliyyat, elektrik enerjisi, təbii qaz ilə bağlı müxtəlif sahələrdə ortaq layihələrin tamamlanması işlərinin sürətləndirilməsinin, ticarət mübadiləsinin həcminin artırılmasının, insanlar arasında təmasların asanlaşdırılmasının önəm kəsb etdiyini vurğulayır.

İran İslam Respublikası ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmaqla regionda davamlı sülhün və təhlükəsizliyin bərqərar olmasında mühüm rol oynaya biləcək kommunikasiya yollarının açılacağına inanır.

Uca Allahdan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə səadət və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi, rifah və firavanlıq arzularımı çatdırıram.

*Hörmətlə,*

***FİLİP,***
***Belçikalıların Kralı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi və Azərbaycan Respublikasının bütün vətəndaşlarını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sizin quruculuq səyləriniz sayəsində Azərbaycan bu gün sürətlə inkişaf edən iqtisadiyyatı, vətəndaşların həyat səviyyəsinin davamlı şəkildə yüksəlməsi, beynəlxalq aləmdə əldə etdiyi mühüm nailiyyətlər ilə haqlı olaraq fəxr edir.

Minsk-Bakı strateji tərəfdaşlığının daha da möhkəmlənməsinə zəmanət verən hökumətlər, parlamentlər və regionlar arasında sistemli əməkdaşlıq, müntəzəm təmaslarımız buna bariz sübutdur. Bu münasibətlər hər iki dövlətin maraqlarına cavab verir.

Əminəm ki, Belarus-Azərbaycan əməkdaşlığı dostluq və qarşılıqlı anlaşma ənənələri əsasında bundan sonra da fəal şəkildə inkişaf edəcəkdir.

Bu bayram münasibətilə Sizə və ailənizə cansağlığı, rifah, bütün azərbaycanlılara isə əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Zati-alinizi təbrik edirəm.

Bu bayram münasibətilə Azərbaycan xalqına daha firavan gələcək diləyir və ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

❖ ❖ ❖

Cənab Prezident!

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına firavanlıq və davamlı tərəqqi diləyir, ən xoş arzularımı ifadə edirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün Sizinlə işləməyə hazır olduğumu bir daha vurğulayıram.

*Dərin hörmətlə,*

***Bassiru Diomaye FAYE,***
***Seneqal Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Ötən müddət ərzində Azərbaycan cəmiyyətin həyatının bütün sahələrinin təkmilləşdirilməsi və müasirləşdirilməsi işində heyrətamiz nəticələrə, yüksək iqtisadi inkişaf templərinə, dünya birliyində nüfuzunun möhkəmləndirilməsinə nail olmuş, uğurlu beynəlxalq layihələrin təşəbbüskarı kimi xüsusi rol oynamışdır.

Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyətinə göstərdiyiniz davamlı diqqətə görə Sizə minnətdarıq. ŞƏT-in dialoq üzrə tərəfdaşı olaraq Azərbaycan 10 ildən artıqdır ki, təşkilatın məqsəd və vəzifələrinin həyata keçirilməsinə mühüm töhfə verir. Əminik ki, Azərbaycan ilə ŞƏT arasında çoxşaxəli əməkdaşlıq gələcəkdə də möhkəmlənəcəkdir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, Azərbaycanın daha da tərəqqisi naminə fəaliyyətinizdə Sizə yeni uğurlar, cansağlığı və əmin-amanlıq arzu edim.

*Dərin hörmətlə,*

***Nurlan YERMEKBAYEV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

28 May - Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi günü münasibətilə Tatarıstan xalqının və şəxsən mənim səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bir əsr əvvəl Azərbaycan xalqı öz müqəddəratını müstəqil həll etmək, doğma torpağının bu gününü və gələcəyini müəyyənləşdirmək kimi müstəsna hüququnu müdafiə etdi. Bu cəsarətli seçim, nəsillərin qırılmaz əlaqəsi və ideya mirası Azərbaycan dövlətinin gələcək tarixini, ən əsası isə müasir uğur və nailiyyətlərini böyük dərəcədə qabaqcadan müəyyən etdi. Qoy, bu möhtəşəm günün sevinci, ümumi yüksək məqsədlər ətrafında birliyin xüsusi ruhu Sizin və gözəl ölkənizin bütün vətəndaşları üçün Azərbaycanın firavanlığı naminə bundan sonra da yorulmaz quruculuq işlərində ilham mənbəyinə və yeni gücə çevrilsin!

Bu fürsətdən istifadə edərək, Tatarıstan Respublikasına göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı ifadə etmək istəyirəm. Ümidvaram ki, biz gələcəkdə də Rusiya-Azərbaycan münasibətləri çərçivəsində qarşılıqlı anlaşma və etimada əsaslanan əməkdaşlıq ənənələrini artırmaq üçün birgə səylərimizi davam etdirəcəyik.

Sizə, yaxınlarınıza və respublikanın sakinlərinə möhkəm cansağlığı, xoşbəxtlik və gözəl bayram əhvali-ruhiyyəsi arzulayıram.

*Hörmətlə,*

***Rüstəm MİNNİXANOV,***
***Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi,***
***"Rusiya - İslam Dünyası" Strateji Baxış Qrupunun sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

İcazə verin, Sizə öz ehtiramımı ifadə edim və 28 May - Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Bu bayram Azərbaycan Respublikasının öz ölkəsini sevən, onun tarixini və ənənələrini əziz tutan, daha gözəl gələcək naminə çalışan bütün sakinlərini birləşdirir.

Bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və doğma ölkənin rifahı naminə quruculuq fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Azərbaycan Respublikası qarşılıqlı fəaliyyətin bütün istiqamətləri üzrə həmişə Rusiya Federasiyasının strateji tərəfdaşı olub və belə olaraq qalır.

Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında yaranmış dostluq əlaqələrini yüksək qiymətləndirirəm və regionumuzla çoxplanlı qarşılıqlı faydalı təmasların möhkəmləndirilməsinə verdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

*Hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Çox hörmətli Birinci vitse-prezident Mehriban xanım!

İcazə verin, Sizə dərin ehtiramımı ifadə edim və Seçenov Universitetinin kollektivi adından, həmçinin şəxsən öz adımdan Sizi və Azərbaycan Respublikasının bütün xalqını Müstəqillik Günü münasibətilə təbrik edim.

Azərbaycan xalqının rifahı naminə genişmiqyaslı fəaliyyətiniz, humanitar dəyərlərə dərin sədaqətiniz, səhiyyə, təhsil və mədəniyyətin inkişafına böyük töhfəniz beynəlxalq aləmdə Sizə səmimi hörmət qazandırıb.

Sizin rəhbərliyinizlə ölkənin mənəvi potensialını möhkəmləndirən çox mühüm sosial təşəbbüslər həyata keçirilir. Sizin tibb elminin və təcrübəsinin inkişafına, həmçinin vətəndaşların sağlamlığının möhkəmləndirilməsinə yönəlmiş proqramların dəstəklənməsinə mühüm töhfənizi xüsusi qeyd etmək istərdim.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq və yüksək missiyanızda yeni-yeni uğurlarla bağlı ən xoş arzularımı qəbul edin.

Qoy, Azərbaycan sülh və tərəqqi naminə bundan sonra da yeni zirvələr fəth etsin!

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

Çox hörmətli Mehriban Arif qızı!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə öz dərin ehtiramımı bildirir və səmimi təbriklərimi çatdırıram.

Bu bayram Azərbaycanın öz Vətənini sevən, tarixinə və ənənələrinə sadiq qalan, daha xoşbəxt gələcək naminə çalışan bütün sakinlərini birləşdirir.

Ölkənizin həyatının bu əlamətdar günündə Sizə və Azərbaycan Respublikasının bütün xalqına möhkəm cansağlığı, xoşbəxtlik, sülh və tərəqqi, daha firavan həyat naminə yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Respublikası ilə Həştərxan vilayəti arasında çoxşaxəli əməkdaşlığın daha da genişlənməsinə verdiyiniz dəstəyi yüksək qiymətləndiririk. Qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərimizin bundan sonra da uğurla davam edəcəyinə əmin olduğumu bildirirəm.

*Dərin hörmətlə,*

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

## Milli Məclisin iclasında

# Mirasın qəbulu institutunun tələbləri təkmilləşdirilir

**Mayın 23-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə başçılığı ilə nümayəndə heyətinin mayın 19- 20-də İspaniya Krallığına rəsmi səfəri barədə məlumat verib.**





Spiker Sahibə Qafarova qeyd edib ki, səfər çərçivəsində İspaniya Parlamenti Senatının Sədri Pedro Rollan və Deputatlar Konqresinin Sədri Fransina Armenqol ilə ayrılıqda görüşlər keçirilib. Görüşlərdə Azərbaycan-İspaniya münasibətlərinin indiki vəziyyətindən, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olunub. Siyasi əlaqələrin inkişafında müsbət dinamikanın müşahidə olunduğu diqqətə çatdırılıb. Bakıda keçirilmiş COP29 konfransında İspaniya Hökumətinin Sədri Pedro Sançezin və parlament üzvlərinin Azərbaycana səfərlərinin əhəmiyyəti qeyd olunub.

Görüşlər çərçivəsində parlamentlər arasında əməkdaşlıq məsələləri müzakirə olunub. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi diqqətə çatdırılıb. O cümlədən ölkələrimiz arasında humanitar sahədə əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Təhsil, mədəniyyət sahələrində əlaqələrin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığı vurğulanıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, görüşlərdə Cənubi Qafqazda mövcud vəziyyət barədə də danışılıb. Azərbaycanla Ermənistan arasında normallaşma prosesi, mövcud olmuş münaqişənin tarixi, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, işğaldan azad edilmiş ərazilərimizdə aparılan tikinti-quruculuq işləri barədə həmsöhbətlərə geniş məlumat verilib.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Spiker Sahibə Qafarova İspaniyaya rəsmi səfərin uğurlu olduğunu qeyd edib və bununla əlaqədar nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirib.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədri Fazil Mustafa, deputatlar Nizami Səfərov, Sahib Alıyev, Əziz Ələkbərov, Elnarə Akimova, Elman Nəsirov, Kamran Bayramov, Azay Quliyev, Vüqar Bayramov, Tural Gəncəliyev çıxış ediblər.

Deputatlar Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Macarıstana işgüzar səfərinin, bu səfər çərçivəsində Budapeştdə keçirilmiş Türk Dövlətləri Təşkilatının (TDT) dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakının, bu önəmli tədbirdə səsləndirdiyi fikirlərin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Çıxış edənlər bu görüşün türk dünyasının gücünü, potensial imkanlarını nümayiş etdirdiyini bildiriblər. Habelə, təşkilata üzv ölkələr arasında münasibətlərin möhkəmləndirilməsinin, iqtisadi əməkdaşlığın dərinləşməsinin, türk dövlətləri arasında strateji tərəfdaşlığın, regional inteqrasiyanın daha da gücləndirilməsinin vacibliyindən söhbət açıblar. Deputatlar ölkə Prezidentinin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycanın geosiyasi mövqeyinin daha da gücləndiyini, ölkəmizin regional enerji təhlükəsizliyinə töhfə verdiyini xüsusi qeyd ediblər.

Çıxışlarda Qərbi Azərbaycana dinc yolla, təhlükəsiz şəkildə qayıdışın hazırda aktual məsələlərdən olduğu söylənilib. Qeyd edilib ki, bu problemin həlli üçün beynəlxalq hüquqi əsaslandırma müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı, mayın 21-də Türkiyənin Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusuna həsr olunmuş beynəlxalq konfransın keçirilməsinin rəmzi məna daşıdığı və tədbirin bu yolda irəliyə doğru tarixi əhəmiyyətli addım olduğu bildirilib. Azərbaycan Prezidentinin konfrans iştirakçılarına ünvanlanmış müraciətində məsələnin əsas mahiyyəti açıqlanıb, qərbi azərbaycanlıların qayıdış istəyində Ermənistana qarşı ərazi iddiası olmadığı və qayıdış reallaşana qədər bu məsələnin Azərbaycanın gündəliyindən çıxmayacağı vurğulanıb.

Müzakirələrdə bu günlərdə Qafqaz Müsəlmanları İdarəsində keçirilmiş tədbirdə İrəvan Qazisinin fəaliyyətinin bərpa olunduğu söylənilib və bunun Qərbi Azərbaycana qayıdış strategiyasında əhəmiyyətli rolundan bəhs edilib.

Millət vəkilləri həmçinin Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın rolunu xüsusi qeyd edərək, Ermənistanla sülh müqaviləsi üzrə razılıq əldə edilməsi istiqamətində atılan addımları yüksək qiymətləndiriblər.

Spiker Sahibə Qafarova Qərbi Azərbaycana qayıdış məsələsinin aktuallığını nəzərə alaraq, bu mövzuda "dəyirmi masa"nın keçirilməsini təklif edib. Milli Məclisin Sədri eyni zamanda Vatikana səfəri zamanı bir sıra ölkələrin, o cümlədən Rumıniya, Çili, Belarus, Estoniya, Pakistan parlamentlərinin spikerləri ilə söhbət etdiyini deyib, əlaqələrin inkişafına dair dostluq qrupları çərçivəsində görülən işlərlə bağlı fikirlərini bölüşüb.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 13 məsələnin daxil edildiyini bildirib.

İlk olaraq "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanununun layihəsi (ikinci oxunuş) təqdim olunub. Məsələ barədə məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli adıçəkilən konstitusiya qanununun qəbulunun ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərlə bağlı olduğunu və bu öhdəliklərdən birinin qanunvericilik hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi və parlamentin hökumətə sorğu ilə müraciət etmək hüququnun təsbit olunması ilə əlaqədar olduğunu söyləyib. Komitə sədri qeyd edib ki, Prezidentin müvafiq fərmanı ilə Nazirlər Kabinetinin iş qaydaları təsdiq olunub və həm hesabata, həm də parlamentin Nazirlər Kabinetinin üzvlərinə sorğusuna dair məsələlər bu sənəddə öz əksini tapıb, eyni zamanda konstitusiya qanununda həmin iş qaydaları ilə bağlı müvafiq maddələr mövcuddur.

Müzakirəyə çıxarılan layihədə nəzərdə tutulan dəyişikliyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatının vaxtı iki orqan arasında razılaşdırılmaqla və hər iki orqanın iş qrafikinə daha uyğun vaxtda müəyyən ediləcək. Layihədə hesabatın verilməsi vaxtının martın 31-dək, yəni ilin I rübü ilə məhdudlaşdırılması təklif olunur.

Konstitusiya qanununun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova nəzərə çatdırıb ki, gündəliyin növbəti beş məsələsindən ikisi beynəlxalq sənədlərin təsdiq edilməsi haqqındadır, biri təltif məsələsi ilə bağlıdır, digər ikisi isə uyğunlaşdırma xarakteri daşıyır və həmin qanun layihələri bir oxunuşda baxılıb qəbul edilməlidir. O, bunun "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələbi olduğunu qeyd edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı arasında aviasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində universal yoxlamalar proqramı çərçivəsində davamlı monitorinq mexanizminə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirib ki, layihədə adıçəkilən Anlaşma Memorandumu 2023-cü il avqustun 1-də Bakı şəhərində və sentyabrın 8-də Monreal şəhərində imzalanıb. Sənədə əsasən, Azərbaycan aviasiya təhlükəsizliyi və nəzarət sisteminin yaradılması və həyata keçirilməsi ilə bağlı məlumatların və sənədlərin Beynəlxalq Mülki Aviasiya Təşkilatının sorğusuna əsasən təqdim etməyi, təşkilatın audit və qiymətləndirmə mexanizmlərində iştirak etməyi, auditlər zamanı aidiyyəti dövlət qurumları tərəfindən zəruri şəraitin yaradılmasını öz öhdəsinə götürür. Bununla yanaşı, Anlaşma Memorandumuna uyğun olaraq Azərbaycan müvafiq hüquqi və inzibati mexanizmlərin təşkilatın tələblərinə uyğunlaşdırılmasını təmin edir. Memorandumda həmçinin texniki əməkdaşlıq da nəzərdə tutulur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin rəyini bildirmək üçün çıxış edən deputat Pərvanə Vəliyeva qanun layihəsinə komitədə baxıldığını və plenar iclasa tövsiyə olunduğunu söyləyib. O, bu məsələnin mülki aviasiya sahəsində beynəlxalq münasibətlər nöqteyi-nəzərindən əhəmiyyətindən söhbət açıb. Millət vəkili Azərbaycanın mülki aviasiya sisteminin beynəlxalq standartlara uyğun fəaliyyət göstərdiyini, təhlükəsizliklə bağlı davamlı monitorinqə açıq olduğunu və bunun nəticəsində ölkəmizə olan beynəlxalq etimadın daha da artdığını qeyd edib.

Deputat Hikmət Məmmədov məsələ barədə öz fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Komitə sədri bildirib ki, saziş 2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanıb. 13 maddədən ibarət olan sazişin məqsədi bitki xəstəliklərinə və ziyanvericilərə qarşı birgə mübarizə aparmaq, zərərli orqanizmlərin yayılmasının qarşısını almaqla kənd təsərrüfatı məhsullarının təhlükəsiz dövriyyəsini təmin etməkdir. Qeyd edilib ki, saziş məhsullarımızın xarici bazarlara çıxışını asanlaşdırır və ölkəyə idxal olunan məhsullarla zərərli orqanizmlərin daxilolma riskinin qarşısını almaq üçün səmərəli mexanizm yaradır.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Elçin Mirzəbəyli bu məsələnin təmsil etdiyi komitə tərəfindən müsbət dəyərləndirildiyini bildirib. O, sənədin Azərbaycanla Pakistan arasında aqrar sahədə strateji əməkdaşlığın genişləndirilməsi baxımından önəmli olduğunu deyib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Millət vəkili layihənin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olduğunu bildirib.

Layihəyə uyğun olaraq, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunun 2-ci maddəsinə "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" yubiley medalı" məzmununda yeni hissə əlavə edilir. Sənəddə habelə "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamənin və yubiley medalının təsvirinin təsdiq edilməsi ilə bağlı müddəalar əks olunub.

Əsasnaməyə əsasən, "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" yubiley medalı ilə Məhkəmə-Hüquq Şurasının üzvləri və üzvü olmuş şəxslər, öz vəzifələrini nümunəvi yerinə yetirən, qüsursuz fəaliyyəti ilə fərqlənən hakimlər, Məhkəmə-Hüquq Şurasının aparatında və məhkəmələrin aparatlarında qulluq keçən dövlət qulluqçuları, məhkəmə sisteminin inkişafına töhfə vermiş və məhkəmə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Nizami Səfərov "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanunun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsini də təqdim edib. Nəzərə çatdırıb ki, layihədə Əmək Məcəlləsində işçinin iş yeri və orta əməkhaqqının saxlanıldığı hallar sırasından hakim vəzifəsinə namizədlər üçün ilkin uzunmüddətli tədris kurslarına göndərilməsi müddəasının çıxarılması təklif edilir.

Bildirilib ki, "Dövlət qulluğu haqqında" qanunda məhkəmə hakimiyyəti orqanlarının və Məhkəmə-Hüquq Şurasının aparatlarında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasına şikayət vermək imkanı nəzərdə tutulub. Bununla yanaşı, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunda ədliyyə orqanlarına qulluğa qəbulun şərtləri və qaydalarını və ədliyyə orqanlarında stajorluq və sınaq keçməni tənzimləyən maddələrindən hakim vəzifəsinə namizədlər üçün nəzərdə tutulmuş tədris kurslarını bitirmiş, lakin hakim vəzifəsinə təklif olunmamış şəxslərin, ədliyyə orqanlarına inzibati vəzifəyə qulluğa müsabiqəsiz qəbul edilməsi, həmçinin stajorluq və sınaq müddətinin müəyyən edilməsi müddəalarının çıxarılması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Vüqar Rəhimzadə Azərbaycan Respublikasının Su Məcəlləsində və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Millət vəkili bildirib ki, Prezidentin "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 23 noyabr tarixli fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası ərazisində su təchizatı sahəsində idarəetmə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə və onun tabeliyində olan publik hüquqi şəxslərə ötürülüb. Bununla əlaqədar olaraq, Su Məcəlləsində və "Meliorasiya və irriqasiya haqqında" qanunda müvafiq dəyişikliklər təklif olunur.

Qeyd edilib ki, dəyişikliklərə əsasən, "Su münasibətlərinin subyektləri", eləcə də "Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində idarəetmə sistemi" adlanan maddələrdən "Naxçıvan Muxtar Respublikası" sözlərinin çıxarılması, habelə su obyektlərinin istifadəsi və mühafizəsi, meliorasiya və irriqasiya sahəsində Naxçıvan Muxtar Respublikası icra hakimiyyəti orqanlarının (Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin) səlahiyyətlərini nəzərdə tutan maddələrin ləğvi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Pasportlar haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsindən (birinci oxunuş) danışıb. Deputat bildirib ki, "Dövlət qulluğu haqqında" qanuna bir sıra dəyişikliklər edilərək, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavini vəzifəsi inzibati vəzifələrin birinci təsnifatına aid edilib. Bu dəyişikliklərin icrası məqsədilə "Pasportlar haqqında" qanuna təklif edilən düzəlişə əsasən, Prezident Administrasiyasında şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavinləri diplomatik pasportu əldə edə biləcək subyektlər dairəsinə daxil edilir.

Bununla yanaşı, "Dövlət qulluğu haqqında" qanunda Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasının ləğv edilməsi ilə bağlı dəyişiklik təklif olunur və həmin quruma dair müvafiq müddəaların qanundan çıxarılması nəzərdə tutulur. Bu qanuna təklif olunan digər dəyişiklikdə inzibati və yardımçı vəzifələr təsnifatına Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi vəzifəsi əlavə edilir.

Parlamentin komitə sədri Fazil Mustafa və deputat Aydın Mirzəzadə məsələ barədə öz fikirlərini bölüşdükdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb. Komitə sədri qeyd edib ki, layihə Dünya Bankı Qrupunun "Biznesin müflisləşməsi" indikatoru üzrə müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyaların həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi"ndə iflas proseduru başlanılmış hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər barədə məlumatların müvafiq olaraq hüquqi şəxslərin dövlət reyestrində və vergi ödəyicilərinin uçotu reyestrində uçotunun aparılması məqsədilə hazırlanıb.

Sənəddə hüquqi şəxsin və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin iflas prosesində olması barədə məlumatların reyestrinin aparılması nəzərdə tutulur. Belə ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs müflis elan olunduğu məqamdan və iflas prosesinə xitam verildiyi tarixdən 15 gün müddətində bu barədə vergi orqanına məlumat verməlidir. Habelə hüquqi şəxsin iflas prosesində olması faktının dövlət qeydiyyatı aparılmalı, bununla əlaqədar qeydiyyat orqanına 15 gündən gec olmayaraq ərizə ilə müraciət edilməlidir.

Qanun layihəsində nəzərdə tutulan digər dəyişiklik müddətlərin qısaldılması ilə bağlıdır. Belə ki, Vergi Məcəlləsinə əsasən, vergi ödəyicisinin olduğu yer və ya yaşadığı yer dəyişdikdə, eləcə də onun vergi orqanında uçota alınmaq üçün verdiyi ərizə formasında olan digər məlumatlarda hər hansı dəyişiklik baş verdikdə, vergi ödəyicisi bu cür dəyişiklik baş verdiyi gündən 40 gün müddətində vergi orqanına məlumat verməlidir. Eyni zamanda, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna əsasən, hüquqi şəxslər təsis sənədlərinə edilən hər bir dəyişiklik barədə həmin dəyişikliyin baş verdiyi andan 40 gün müddətində qeydiyyat orqanına ərizə ilə müraciət etməlidirlər. Təklif olunan dəyişikliyə əsasən, hər iki halda müddətlər azaldılaraq 15 gün müəyyən olunur.

Bu məsələ ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini deputat Nurlan Həsənov diqqətə çatdırıb. O qeyd edib ki, iflas prosedurunun reyestr və vergi uçotu sistemlərində nizamlı, ictimai və çevik şəkildə əks olunması həm dövlət nəzarətinin, həm də biznes mühitinin davamlı inkişafına mühüm töhfə verir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Mülki Məcəllədə, "Notariat haqqında" və "İcra haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Millət vəkili bildirib ki, layihə vərəsəlik hüquq münasibətlərində tərəflərin - həm miras qoyanın, həm də vərəsənin hüquq və maraqlarının ədalətli şəkildə qorunmasına xidmət edir.

Diqqətə çatdırılıb ki, sənəd mülkiyyət hüququnun konstitusiya təminatının möhkəmləndirilməsi, mülki dövriyyə iştirakçılarının maraqlarının hüquqi müəyyənliyi və sabitliyinin təmin edilməsi üçün mirasın qəbulu institutunun tələblərinin daha da təkmilləşdirilməsi və dəqiqləşdirilməsi məqsədini daşıyır. Layihə üzrə əsas dəyişikliklər Mülki Məcəlləyə təklif edilir, digər qanunlara isə mülki qanunvericilikdən irəli gələn düzəlişlər nəzərdə tutulur.

Qeyd olunub ki, mirasın qəbul edildiyi müddəti nəzərdə tutan normalar qüvvədən düşdüyü üçün mirasın qəbul edilməsinin xüsusi müddətini və mirasın qəbul edilməsi vaxtının uzadılmasını nəzərdə tutan maddələr də əhəmiyyətini itirib. Təqdim edilən layihədə həmin maddələrin ləğv edilməsi təklif olunur.

Bildirilib ki, Mülki Məcəllənin 1243.2-ci maddəsində mirasın qəbulunun qeyri-formal üsulu olaraq əmlaka sahiblik etmək və ya əmlakı idarə etməyə faktiki başlamaq göstərilsə də, həmin Məcəllənin 1243.3-cü maddəsində hər iki hal müəyyən edilmədiyindən müvafiq dəyişiklik təklif edilir. Eyni zamanda mirasdan imtina etməməyin mirasın qəbulu şərti kimi müəyyən edilməsi Mülki Məcəllənin müvafiq maddələri üzrə uyğunlaşdırma xarakterli dəyişikliklərin olunmasını zəruri edir.

Layihədə Mülki Məcəllənin "Mirasın siyahısı" adlanan 1254-cü maddəsinə də dəyişiklik təklif edilərək, mirasın siyahıya alınması üçün nəzərdə tutulan müddətin mirasın qəbulundan imtina müddəti ilə məhdudlaşdırılması, həmçinin müvafiq hallarda müddətin axımının dayandırılmasını nəzərdə tutan əlverişli qaydalar müəyyən edilir. Bununla yanaşı, miras şəriklərinə vərəsəlik şəhadətnaməsi verilməsi zamanı şəhadətnamə almaq üçün müraciət etməmiş miras şəriklərinin də hüquqlarının təmin edilməsini nəzərdə tutan yeni qaydalar müəyyən edilir.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini nəzərə çatdırdıqdan sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumatı təqdim edib. Millət vəkili bildirib ki, layihə ölkə ərazisində tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının yenilənməsinin hüquqi əsasının yaradılması və yeni qida normalarının müəyyən edilməsi məqsədilə hazırlanıb. Qeyd olunub ki, adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb.

Qanuna edilən dəyişikliyə əsasən, minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları müəyyən ediləcək.

Məsələ ilə bağlı müzakirələrdə komitə sədri Hicran Hüseynova, deputatlar Qüdrət Həsənquliyev, Bəxtiyar Əliyev fikir və qeydlərini söyləyiblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

"Pambıqçılıq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev diqqətə çatdırıb ki, layihə Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq hazırlanıb. Təklif olunan dəyişikliyə əsasən, pambığın alqı-satqısı üçün xüsusi olaraq nəzərdə tutulan pambıq qəbulu sənədinin, yəni müvafiq qaydada tərtib edilmiş "pambıq qəbulu qəbzi"nin ləğvi və bu malın satışının elektron qaimə-fakturaları və ya malların alış aktları ilə sənədləşdirilməsi nəzərdə tutulur. Vurğulanıb ki, pambığın alqı-satqısı prosesinin elektronlaşdırılması həm də pambıqçılıq sahəsində vergi və subsidiyalar üzrə avtomatlaşdırılmış təhlilin aparılmasına, sahibkarlar və fermerlər üçün əməliyyatların sadələşdirilməsinə imkan verəcək.

Deputat Vüqar Bayramovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Layihə barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. O bildirib ki, layihənin əsas məqsədi inzibati xətalarla bağlı protokolların və qərarların elektron qaydada izlənilməsini, mərkəzləşdirilmiş qaydada qeydiyyatının aparılmasını və bununla da inzibati cərimələrdən daxil olan vəsaitlərin şəffaflığını və hesabatlılığını təmin etməkdir. Bu məqsədlə "İCMAL" adlı informasiya sisteminin yaradılacağını deyən deputat Kamal Cəfərov yeni sistemin iş prinsiplərini diqqətə çatdırıb.

Dəyişikliklərlə bağlı komitə sədri Zahid Orucun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Qiymətli kağızlar bazarı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov məlumat verib. O, bütün səhmləri dövlətə məxsus səhmdar cəmiyyətlərin səhmlərinin buraxılışı, dövlət qeydiyyatı və yerləşdirilməsi prosedurunun sadələşdirilməsi ilə bağlı qanun layihəsində təsbit olunan müddəaları diqqətə çatdırıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakıda Gürcüstanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul





**Mayın 23-də Bakıda Gürcüstanın Müstəqillik Gününə həsr olunmuş rəsmi qəbul keçirilib. Tədbir hər iki ölkənin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze çıxış edərək bildirib ki, ölkəsinin çoxəsrlik dövlətçilik tarixində 1918-ci il mayın 26-sı xüsusi əhəmiyyət kəsb edir. Həmin tarixdə Gürcüstan Demokratik Respublikası yaradılaraq gürcü xalqının müstəqil, vahid və azad dövlət qurmaq arzusu reallaşıb.**

Regionda və dünyada sülhün və sabitliyin əhəmiyyətindən danışan səfir Gürcüstan hökumətinin münaqişələrin sülh yolu ilə həlli siyasətinə sadiq olduğunu bildirib, Azərbaycanın bu mövzuda dost, strateji tərəfdaş kimi ölkəsinə göstərdiyi dəstəyə görə minnətdarlığını ifadə edib.

Tədbirdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstanın Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb.

Azərbaycanla Gürcüstan arasında əlaqələrin dərin tarixi kökləri olduğunu deyən Sahibə Qafarova bildirib ki, əsrlər boyu xalqlarımız birlikdə olmuş, dostluq və mehriban qonşuluq şəraitində yaşamış və daim bir-birini dəstəkləmişlər.

XX əsrin əvvəllərində Gürcüstan Demokratik Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında səmərəli əməkdaşlıq əlaqələri qurulmuşdu. Bu gün isə dost və qardaş dövlətlərimiz arasında münasibətlər strateji xarakter daşıyır və Cənubi Qafqazda sabitləşdirici rol oynayır.

Azərbaycan və Gürcüstan mehriban qonşuluq, dövlət suverenliyinə və ərazi bütövlüyünə hörmət siyasəti yeridirlər və bu, digər dövlətlər üçün də nümunədir. Biz bütün bölgədə sülh, sabitlik və dayanıqlı inkişaf uğrunda çıxış edirik və bir-birimizin uğurlarına da sevinirik.

Ölkə rəhbərlərinin qarşılıqlı səfərləri, müntəzəm görüşləri onların bu əlaqələrə nə dərəcədə böyük əhəmiyyət verdiyinin bariz ifadəsidir. Dövlət başçıları arasında mövcud olan yüksəksəviyyəli siyasi dialoq münasibətlərimizin bütün sahələrdə daha da möhkəmlənməsinə və dərinləşməsinə təkan verir.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimiz ikitərəfli səmərəli əməkdaşlığın möhkəm və davamlı modelini yaratmışlar və bu əməkdaşlıq siyasətdən iqtisadiyyata, elm və təhsildən mədəniyyətə qədər ən müxtəlif sahələri əhatə edir. İqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyəti iş birliyinin genişlənməsi üçün yeni imkanlar yaradır.

Azərbaycan Gürcüstan iqtisadiyyatına, o cümlədən energetika və nəqliyyat kimi mühüm sahələrə ən çox sərmayə qoyan dövlətlərdən biridir. Uğurlu iş birliyimizin bəhrəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryol xətti kimi layihələr xalqlarımızın rifahına xidmət etməklə yanaşı, Şərqlə Qərb, Avropa ilə Asiya arasında yeni nəqliyyat-enerji dəhlizinin formalaşmasında önəmli rol oynayır.

Ölkələrimiz arasında humanitar əməkdaşlığın əhəmiyyətindən danışan Milli Məclisin Sədri qeyd edib ki, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstan cəmiyyətinin, Azərbaycanda yaşayan gürcülər isə Azərbaycan cəmiyyətinin ayrılmaz hissələridir və hər iki dövlətdə hörmət və qayğı ilə əhatə olunublar. Onlar dost və qardaş ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına böyük töhfə verirlər.

Təhsil, elm, mədəniyyət sahələrində görülən işlər, xüsusən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən Gürcüstanda həyata keçirilən çoxsaylı layihələr xalqlarımızın və dövlətlərimizin daha da yaxınlaşmasına kömək göstərir.

Spiker diqqətə çatdırıb ki, Azərbaycanla Gürcüstan arasında mövcud olan qarşılıqlı inam, etimad və dəstək beynəlxalq miqyasda fəaliyyətimizdə də öz əksini tapır. Bütün beynəlxalq təşkilatlarda Azərbaycan və Gürcüstan daim həmrəylik nümayiş etdirirlər.

Milli Məclisin Sədri çıxışının sonunda Azərbaycanla Gürcüstan arasında mövcud olan möhkəm dostluq və tərəfdaşlıq münasibətlərinin qarşıdakı illərdə daha da inkişaf edəcəyinə və xalqlarımızın tərəqqisinə xidmət edəcəyinə əminliyini ifadə edib. Spiker bir daha bayram münasibətilə təbriklərini çatdırıb, qardaş Gürcüstana yeni uğurlar, sülh və sabitlik arzularını ifadə edib.

Tədbirdə Gürcüstan və Azərbaycanın milli mahnıları səsləndirilib. Qonaqlar həmçinin gürcü zərgərlik və milli geyim nümunələrinin sərgisinə baxmaq imkanı əldə ediblər.

***"Azərbaycan"***

# Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdam şəhərində keçirilib

**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə qərargahın növbəti iclası mayın 23-də Ağdam şəhərində keçirilib.**







AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli inkişaf strategiyasını müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərin davam etdirildiyini bildirib.

Dövlətimizin başçısının xüsusi diqqət və qayğısı sayəsində Ağdam rayonu da daxil olmaqla, işğaldan azad olunmuş bütün ərazilərin sürətlə dirçəldiyini və inkişaf etdiyini diqqətə çatdıran qərargah rəhbəri deyib ki, burada dağıdılmış infrastruktur bərpa olunur, kəndlər və şəhərlər yenidən qurulur, həyat getdikcə daha çox canlanır. Beş il ərzində dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilər üzrə 500-dən çox tədbirdə iştirak edib, müxtəlif təyinatlı 159 layihənin təməlini qoyub, 133 infrastruktur obyektinin açılışını edib.

Bildirilib ki, Böyük qayıdış proqramının uğurlu icrası və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində mühüm işlər görülür, işğaldan azad olunmuş ərazilərdəki 14 yaşayış məntəqəsinə keçmiş məcburi köçkünlərin qayıdışı artıq təmin edilib. Bütövlükdə hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə 43 mindən çox insan yaşayır və fəaliyyət göstərir.

İclas iştirakçılarının diqqətinə çatdırılıb ki, dayanıqlı məskunlaşmaya nail olmaq üçün geri qayıdan keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin həlli əsas hədəflərdən biridir. Bu məqsədlə kənd təsərrüfatı sahəsində fəaliyyətin genişləndirilməsi, biznes mühitinin stimullaşdırılması və iqtisadi fəallığın təşviqi istiqamətlərində zəruri tədbirlər görülür. Artıq Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədilə istifadəyə verilməsi üçün icarə müqavilələri bağlanır, işğaldan azad olunmuş ərazilərdə yaradılmış sənaye məhəllələrində sahibkarlıq fəaliyyəti genişləndirilir və investisiyalar cəlb edilir.




Qərargah rəhbəri işğaldan azad edilmiş ərazilərdə şəhər-kənd inteqrasiyasının gücləndirilməsi və regionların digər ərazilərlə dayanıqlı əlaqəsinin təmin olunması məqsədilə nəqliyyat infrastrukturunun qurulması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini qeyd edib. Hazırda ümumi uzunluğu 2644 kilometrə çatan 40 avtomobil yolunun inşası davam etdirilir, uzunluğu 224,1 kilometr olan 7 yolda işlər artıq yekunlaşıb.

İşğaldan azad edilmiş ərazilərin inkişafı və yeni yaşayış məntəqələrinin salınması məsələlərinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu xatırladan Samir Nuriyev bu prosesin yalnız fiziki məkanların qurulması ilə məhdudlaşmadığını, eyni zamanda sosial, iqtisadi, ekoloji və hüquqi aspektləri özündə birləşdirən çoxşaxəli və kompleks yanaşmanı tələb edən bir proses olduğunu vurğulayıb.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində, habelə proqram çərçivəsində əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi, nəqliyyat infrastrukturunun yaradılması, sərnişindaşıma və rabitə xidmətlərinin təşkili, ərazilərdə şəhərlərin və digər yaşayış məntəqələrinin yenidən qurulması və bərpası sahələrində görülən işlər barədə məruzələr dinlənilib. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin ərazilər üzrə xüsusi nümayəndəliklərinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə məlumatlar təqdim edilib.

İclasın sonunda qərargahın rəhbəri Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə mühüm əhəmiyyət verdiyini bildirib, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində müvafiq tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

Səfər çərçivəsində Ağdam şəhəri ərazisində bir sıra obyektlərə, o cümlədən Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə, Ağdam Muğam Mərkəzinə və Ağdam İmarət Kompleksinə baxış keçirilib.

İnşasına ötən ildən başlanılmış 2-ci yaşayış məhəlləsi ilə tanışlıq çərçivəsində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi tərəfindən qeyd olunub ki, hazırda 11 kvartalda 66 binanın tikinti işləri davam etdirilir. Məhəllədə ümumilikdə 60 yaşayış, 6 qeyri-yaşayış binası olmaqla, 1268 mənzilin, həmçinin qazanxananın, uşaqlar üçün əyləncə mərkəzinin, idman meydançalarının inşası nəzərdə tutulur.

Daha sonra Ağdam Cümə məscidi ziyarət edilib. İşğal dövründə - 2000-ci il mayın 9-da Ümummilli Lider Heydər Əliyevə təqdim olunmuş daş parçasının aid olduğu məscid Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilib. Məscidin qırıq minarəsi və içindəki daşları, giriş qapısı bərpa olunub, fasadı tarixi görkəminə uyğun restavrasiya edilib.

Sonda dövlətimizin başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılmış Ağdam Sənaye Parkına yola düşən Əlaqələndirmə Qərargahının üzvləri burada sahibkarlıq subyektləri üçün təmin edilmiş şəraitlə tanış olublar. Sənaye parkı barədə məlumat verən iqtisadiyyat naziri vurğulayıb ki, 190 hektar ərazini əhatə edən Ağdam Sənaye Parkı rezidentlərin sayına görə ölkədə ikinci sənaye parkıdır. Burada ümumilikdə 31 olmaqla 27 müəssisə rezident, 4 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb. Sənaye parkında divar kağızının istehsalçısı olan "Mister Decor", rabitə və işarəvermə, mikroprosessor mərkəzləşmə sistemi avadanlığı istehsalçısı olan "Rail Trans Service", orta və aşağıgərginlikli qurğu, monoblok beton yarımstansiya və elektrik avtomobilləri üçün şarjdoldurma avadanlığı istehsalçısı olan "Eel Electric" və təhlükəsizlik ayaqqabıları, poliuretan çəkmələr istehsalçısı olan "BAFCO İnvest" məhdud məsuliyyətli cəmiyyətlərinin fəaliyyəti barədə məlumatlar təqdim olunub.

# Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin Azərbaycan ərazilərinin işğalında iştirakını sübut edən yeni material məhkəmədə tədqiq edilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 23-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesində dindirilən təqsirləndirilən şəxs Levon Mnatsakanyan Azərbaycanın suveren ərazilərinin işğalı prosesində iştirak etdiyini təsdiqləyib. O, müxtəlif illərdə keçmiş qondarma qurumda "tabor komandiri", "diviziya komandiri" və "artilleriya rəisi" olduğunu bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran təqsirləndirilən şəxs Samvel Karapetyan rəhbərlik etdiyi hərbi hissənin tərkibində Azərbaycanın suveren ərazilərinin işğalında iştirakını etiraf edərək deyib: "Ağdamda, Cəbrayılda, Ağdərədə, Füzulidə və digər ərazilərdə aparılan döyüş əməliyyatlarında iştirak etmişəm".

Məhkəmə prosesində daha sonra Azərbaycan ərazilərinin işğalı zamanı Ermənistanın təşəbbüsü ilə yaradılan "Şuşa əlahiddə taboru"nun tərkibində xarici ölkələrdən gələn şəxslərin iştirakını ifşa edən videomaterial tədqiq olunub.

Kadrlarda bildirilir ki, Ermənistandan və dünyanın müxtəlif yerlərindən, o cümlədən ABŞ-dən, Kanadadan, Suriyadan gələn 210-dan artıq daşnak və könüllü tərəfindən 1991-ci il noyabrın 5-də "Şuşa əlahiddə taboru" yaradılıb.

Videomaterialda deyilir ki, "Qarabağın azad edilməsi uğrunda" döyüşlərdə iştirak edən təxminən 100 erməni diaspor nümayəndəsindən 65-i bu taborun döyüşçüsü olub. Kadrlarda göstərilir ki, işğalçı Ermənistan ordusunun hərbçisi Petros Gevondyanın abidəsi önünə güllər qoyulur.

Materialda həmçinin bildirilir: "Jirayr Sefilyan 1967-ci ildə Beyrutda anadan olub. "Mübarizə"də iştirak etmək məqsədilə 1990-cı ildə vətənə gəlib. Hərbi təlimçi kimi 1990-cı ildən Ermənistanın müxtəlif rayonlarında "yerli özünümüdafiə qrupları"nın formalaşmasında iştirak edib. 1991-ci ildə qrup komandiri kimi Qarabağın bir sıra rayonlarının yaşayış məntəqələrinin "müdafiəsi"ndə iştirak edib. 1992-ci ildə "Daşnaksütyun" döyüş qrupları əsasında Qarabağda ilk bölmələrdən biri yaradılıb və bunun əsasında bir neçə ay sonra keçmiş qondarma rejimin "ordusu"nun "Şuşa əlahiddə batalyonu" formalaşıb. Bütün müharibə boyunca bu hərbi hissənin komandiri Jirayr Sefilyan olub. Onun rəhbərliyi altında həmin hərbi hissənin bölmələri Qarabağın bütün rayonlarının, həmçinin Ağdamın işğal edilməsində iştirak edib.

Videoda bildirilir ki, Qarabağın "azad edilməsi" döyüşlərində iştirak edən təxminən 100 erməni diaspor nümayəndəsindən 65-i bu taborun döyüşçüləri olub. Vurğulanır ki, müharibədən sonra J.Sefilyan 1997-ci ildən 1998-ci ilədək 6-cı müdafiə rayonunun komandiri olub. O, 1-ci dərəcəli "Döyüş Xaçı" medalı (Ermənistan Respublikasının - red.), digər döyüş medalları və dövlət mükafatları ilə təltif olunub. Ermənistanın silahlı qüvvələrində polkovnik-leytenant rütbəsinə malikdir.

Videomaterialda Movses Akopyan (2016-2018-ci illərdə Ermənistan Respublikası silahlı qüvvələrinin baş qərargah rəisi olub - red.) çıxışında onların hərbi hissələrinin əməliyyatlarından danışıb və bildirib ki, xüsusən də Horadiz istiqamətində döyüşlərdə iştirak ediblər: "Bu gün xidmət edən zabitlər xəritə üzərindən görə bilərlər ki, Qaraxanbəyli istiqamətində düşmənin dərinliyinə doğru irəliləmişik. Tabor Əsgəran, Şuşa, Xocavənd, Ağdərə, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Kəlbəcər və Zəngilan əməliyyatlarında iştirak edib".

Kadrlarda Davit İşxanyan da görünür.

Videogörüntülərdəki şəxsin özü olduğunu təsdiqləyən təqsirləndirilən David Manukyan Şuşa taborunun tərkibində Ağdərədə və Kəlbəcərdə aparılan döyüş əməliyyatlarında iştirak etdiyini deyib.

D.Manukyan baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında iddia edib ki, Şuşa taborunun tərkibində muzdlular olmayıb, amma xarici ölkələrdən gələn şəxslər iştirak edib.

Videomateriallar tədqiq edilməklə sualları cavablandıran təqsirləndirilən David Manukyan təqdim olunan görüntülərdəki şəxsin özünün olmasını təkrar təsdiqləyərək, Şuşa taborunun tərkibində Ağdərədə, Kəlbəcərdə aparılan döyüş əməliyyatlarında iştirak etdiyini bildirib.

Təqsirləndirilən şəxs işğal dövründə Azərbaycan ərazilərinin talan edilməsi barədə suallara cavab verməkdən yayınıb.

Daha sonra sualları cavablandıran təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamçısı Vüsal Abdullayevin "1993-1994-cü illərdə hansı əməliyyatlarda iştirak etmisiniz" sualına cavab olaraq deyib ki, sağlamlığı ilə əlaqədar atəş aça bilmədiyinə görə döyüş əməliyyatlarında iştirak etməyib. "Xankəndidə yerləşən 8-ci alayın mərkəzi müdafiə rayonunun silah anbarına cavabdeh şəxs idim. 8-ci alay demək olar bütün döyüş əməliyyatlarında - Şuşa, Laçın, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Horadiz döyüşlərində iştirak edib. Həmin alayın komandirlərindən biri də qardaşım olub. Alayın komandiri isə Samvel Karapetyan idi. Onu 1993-cü ilin yanvarından tanıyıram", - deyə o əlavə edib.

Ardınca videomaterial nümayiş olunmaqla Arayik Harutyunyana suallar verilib.

Videomaterialda jurnalistə müsahibə verən A.Harutyunyan döyüş əməliyyatlarının aparılması qaydası haqqında və Samvel Karapetyanla ilk görüşü barədə məlumatlar verərək deyir: "Mənim sonrakı komandirimlə (Samvel Karapetyan - red.) ilk görüşüm 1992-ci il mayın 7-də olub. O vaxt biz mayın 9-da Şuşaya girmək əməliyyatını planlaşdırırdıq. Hər şey uğurla başa çatdı, Şuşanı azad etdik".

Kadrlarda təqsirləndirilən şəxsin Samvel Karapetyanla birgə tankın üzərində oturub durbinlə ərazini müşahidə etdiyi görünür.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran A.Harutyunyan videomaterialda danışdıqlarını yalan adlandırıb, bu fikirləri qardaşının adından səsləndirdiyini deyib.

Təqsirləndirilən şəxs Güllücənin tutulması barədə videoda səsləndirdiyi fikirlər barədə isə qeyd edib: "Biz Güllücəyə girdik deyərkən 8-ci alayı nəzərdə tuturdum".

Məhkəmə prosesində nümayiş olunan fotoşəkillərin bəzilərində Arayik Harutyunyan özünü tanıyıb. Şəkillərin əksəriyyətində o, hərbi formada görünür.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təqsirləndirilən şəxsə BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin niyə icra olunmaması barədə suallar verib.

O, suallara cavabında deyib: "Bu barədə qərar var idi. Amma niyə yerinə yetirilməməsini bilmirəm. Mən Levon Ter-Petrosyanla da görüşmüşdüm. Başa düşdüm ki, yekdillik olmayıb".

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuror-metodisti Vüsal Abdullayevin suallarını cavablandıran təqsirləndirilən şəxs 2018-2019-cu illərdə Ermənistanla keçmiş qondarma qurum arasında keçirilən 2 iclasın birində iştirak etdiyini vurğulayaraq söyləyib: "2020-ci ilin may ayında "prezident" vəzifəsini qəbul etdim. İyun ayında Ermənistanın baş naziri Nikol Paşinyandan xahiş etmişəm ki, iclas çağırsın. İstəyirdim ki, Azərbaycanla danışıqlar olsun, yekun razılığa gəlinsin. Həmin söhbətdə BMT-nin 4 qətnaməsi də var idi".

Dövlət ittihamçısı Vüsal Əliyevin vaxtilə Azərbaycanın işğal edilmiş ərazilərinin talanması barədə sualına cavab verən A.Harutyunyan qəbiristanlıqların dağıdılmasını barbarlıq adlandırıb.

Daha sonra dindirilən David Babayan dövlət ittihamçılarının BMT Təhlükəsizlik Şurasının qətnamələrindəki işğalçı qüvvələrin kim olması barədə suallarına cavab verməkdən yayınıb.

Məhkəmədə Arkadi Qukasyanın vəkillərinin biri məhkəməyə müraciət edərək səhhətində yaranan problemə görə əvəzlənməsini xahiş edib.

A.Qukasyan müdafiəçisinin dəyişməsinə etirazının olmadığını bildirib. Məhkəmə təqsirləndirilən şəxsə yeni müdafiəçinin təyin olunması barədə qərar qəbul edib və icrası üçün Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına göndərib.

Məhkəmə iclasında təqsirləndirilən şəxslər, həmçinin müdafiəçilərin və zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarını cavablandırıblar.

Məhkəmə prosesi mayın 26-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə erməniəsilli 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 4,19 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 5, 13, 27 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** | 23 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 23 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 23 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 24 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 24 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 25 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Azərbaycan nümayəndə heyəti Kubada bir sıra görüşlər keçirib

**Azərbaycanın xarici işlər nazirinin müavini və COP29-un Baş danışıqçısı Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti mayın 22-də Kuba Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Kubanın xarici işlər nazirinin çoxtərəfli əməkdaşlıq məsələləri üzrə müavini Anayansi Rodriqez Kamexo, eləcə də Karib Hövzəsi Birliyinə (KARİKOM) üzv dövlətlərin Kubada akkreditə olunmuş səfirləri ilə işçi görüşlər keçirilib, "Cubavision Internacional" televiziya kanalına müsahibə verilib.

Kuba xarici işlər nazirinin müavini ilə görüşdə iki ölkə arasında xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan uğurlu əməkdaşlıq münasibətlərindən məmnunluq ifadə edilib. Tərəflər iqlim dəyişikliyi ilə mübarizə və bu kontekstdə Azərbaycanın COP29-a sədrliyi çərçivəsində əldə edilmiş tarixi nəticələr barədə fikir mübadiləsi aparıb, qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində birgə səylərin vacibliyini vurğulayıblar.

KARİKOM-a üzv dövlətlərin Kubadakı səfirləri ilə keçirilmiş görüş zamanı Azərbaycanın təşkilat və ona üzv ölkələrlə əlaqələrin inkişafına xüsusi önəm verdiyi bildirilib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə və sonrakı mərhələdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinə (SIDS) göstərdiyi humanitar və inkişafa yardım dəstəyi diqqətə çatdırılıb.

Görüşdə Azərbaycanla sözügedən qurum arasında əlaqələrin genişləndirilməsinə, birgə layihələrin təşviqinə və çoxtərəfli platformalarda əməkdaşlığın gücləndirilməsinə dair qarşılıqlı maraq ifadə olunub.

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 23 (Bakı şəhəri) | Rəşadət Xalıqov +99450 263 5318<br>25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14 (Naxçıvan MR, Şərur rayonu)<br>28 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova +99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>04 (Masallı rayonu)<br>25 (Yardımlı rayonu) | Adil Mustafayev +99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18 (Hacıqabul rayonu)<br>25 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 05, 06 (Sumqayıt şəhəri)<br>24, 25 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237<br>85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 14 (Salyan rayonu)<br>21 (Neftçala və Biləsuvar rayonları) | Pərviz Mirizadə +99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 01, 15 (Tovuz rayonu)<br>02, 16 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 14, 28 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 04, 23 (Sumqayıt şəhəri) | Tayfun Hacılı +99470 220 0577<br>46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 04, 26 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99450 277 0984<br>93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 17, 24 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | Arpadarai Nigar Cavid qızı | 11, 25 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 13. | Aslanov Novruzəli Davud oğlu | 05, 12, 19, 26 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 14. | Badamov Azər Camal oğlu | 14, 21 (Qusar rayonu) | General Sadulov +99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 15. | Bayramov Kamran Fərhad oğlu | 14 (Göygöl rayonu)<br>21 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747<br>100sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Vüqar İbad oğlu | 02, 10 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 17. | Bədəlov Bədəl Şamil oğlu | 07 (Goranboy rayonu)<br>21 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 18. | Cəfərov Kamal Xaqani oğlu | 06, 20 (Sabirabad rayonu) | Azad Əhmədbəyli +99455 222 2588<br>68sayli_sd@meclis.gov.az |
| 19. | Cəfərov Müşfiq Cəfər oğlu | 17 (Gəncə şəhəri)<br>23 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərova Tamam Şaməmməd qızı | 12, 25 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090<br>88sayli_sd@meclis.gov.az |
| 21. | Əfəndiyev Məzahir Cavid oğlu | 07, 21 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 22. | Əfəndiyeva Günay Elçin qızı | 14, 28 (Bakı şəhəri) | Məhsəti Qarayeva +99455 235 1575<br>14sayli_sd@meclis.gov.az |
| 23. | Ələkbərov Əziz Yusif oğlu | 07, 28 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 24. | Əliyev Bəxtiyar Həmzə oğlu | 05, 19 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 25. | Əliyeva Jalə Fazil qızı | 11, 25 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 26. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 05, 19 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555<br>Mövsüm Həsənli +99451 277 0067<br>27sayli_sd@meclis.gov.az |
| 27. | Əmiraslanov Azər Kamal oğlu | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 27 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 28. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 21 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 29. | Əsədov Heydər Xanış oğlu | 18, 25 (Şirvan şəhəri) | Arif Qasımov +99450 319 5888<br>51sayli_sd@meclis.gov.az |
| 30. | Əsgərov Asif Yunis oğlu | 01, 08 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 31. | Feyziyev Cavanşir Əyyub oğlu | 07, 28 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 32. | Fətəliyeva Sevinc Həbib qızı | 09, 25 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 33. | Fətiyev Xanlar Nuru oğlu | 04, 18 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 34. | Gəncəliyev Tural Babaşah oğlu | 09, 23 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 35. | Hacıyev Sabir Kamal oğlu | 12, 26 (Göyçay rayonu) | Əli Qafarov +99450 200 2209<br>91sayli_sd@meclis.gov.az |
| 36. | Həmzəyev Naqif Ələşrəf oğlu | 11, 30 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 37. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 13, 20 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 38. | Həsən Ramil Sahib oğlu | 05, 19 (Ucar rayonu) | Vüqar Səlimov +99451 215 6141<br>94sayli_sd@meclis.gov.az |
| 39. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 14, 21 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 40. | Həsənov Malik Əvəz oğlu | 14, 28 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Nurlan Urfan oğlu | 14, 21 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 42. | Həsənova Afət Əbil qızı | 11, 18 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 43. | Hüseynli Əli Məhəmməd oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>03, 24 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynov Aydın Nəsir oğlu | 11, 18 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878<br>37sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynova Hicran Kamran qızı | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>11, 25 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Sevinc Əmirəhməd qızı | 04, 21 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 47. | Xasayeva Səbinə Səməd qızı | 04, 18 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 48. | İbrahimqızı Məlahət İbrahim qızı | 05, 19 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimli Fəzail Feyruz oğlu | 10, 21 (Cəlilabad rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549 73sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimov Eldar Rza oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 21 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 51. | İsgəndərov Anar Camal oğlu | 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 28 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 52. | İskəndərov Vüqar Yapon oğlu | 07, 21 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 53. | İsmayılov İmamverdi İbiş oğlu | 02, 23 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov Şahin Əmir oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılzadə Fariz Akif oğlu | 01, 15 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872<br>77sayli_sd@meclis.gov.az |
| 56. | Kərimli Azər Şəmşid oğlu | 14, 21 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 57. | Kərimzadə Pərvin Orxan qızı | 04, 25 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 58. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 11, 18 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Vasif Vaqif oğlu | 14 (Lerik rayonu)<br>28 (Astara rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 60. | Qasımlı Mircəlil Xəqani oğlu | 07 (Bakı şəhəri)<br>09 (Oğuz rayonu) | Anar Çıraqov +99499 309 1131<br>123sayli_sd@meclis.gov.az |
| 61. | Qədirli Erkin Toğrul oğlu | 04, 18 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 62. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 12, 25 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 63. | Quliyev Azay Əjdər oğlu | 11, 19 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Eldar Allahyar oğlu | 08, 22 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899<br>28sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Musa İsa oğlu | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Ülvi Zahid oğlu | 04, 25 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 67. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 12 (Bakı şəhəri)<br>25 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 09, 23 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 /<br>+99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Sadiq Haqverdi oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 70. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 07, 21 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 71. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 07, 21 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 72. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 08, 14 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 /<br>+99470 300 1461<br>69sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 01, 28 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 74. | Məmmədli Müşfiq Fazil oğlu | 04 (Siyəzən rayonu)<br>17 (Quba rayonu) | Nəsimi Əliyev +99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədov Anar İlyaz oğlu | 14, 15, 28 (Tərtər rayonu)<br>29 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 76. | Məmmədov Ceyhun Valeh oğlu | 14 (Sumqayıt şəhəri)<br>28 (Hacıqabul rayonu) | Rəşad Quliyev +99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 77. | Məmmədov Elman Camal oğlu | 03, 10 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 /<br>+99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Hikmət Baba oğlu | 11, 25 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov İlham Kazım oğlu | 05, 28 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov Qaya Məmməd oğlu | 07, 22 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 81. | Məmmədov Məşhur Şahbaz oğlu | 12, 21 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Soltan Teymur oğlu | 14, 21 (Bakı şəhəri) | Azər Məlikov +99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədova Nigar Fikrət qızı | 02, 11 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | Məsimli Əli Əhməd oğlu | 01 (Qax rayonu)<br>30 (Şəki şəhəri) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | Mikayılova Sevil Əlirazı qızı | 11, 19 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | Mirkişili Tahir Famil oğlu | 02, 18 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 87. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 14, 21 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 05, 19 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | Mollazadə Asim Nazim oğlu | 11, 25 (Bakı şəhəri) | İlkin Həsənov +99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | Möhbalıyev Səttar Suliddin oğlu | 04 (Naxçıvan MR, Şahbuz rayonu)<br>25 (Naxçıvan MR, Kəngərli rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | Muradov Rövşən Şahbaz oğlu | 06 (Bakı şəhəri)<br>20 (İsmayıllı rayonu) | Murad Həsənli +99450 510 9897<br>121sayli_sd@meclis.gov.az |
| 92. | Musabəyov Rasim Nəsrəddin oğlu | 03, 17 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | Musayev Elşad Nəbi oğlu | 14, 21 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 /<br>+99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşən Məmmədhənifə oğlu | 15, 22 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | Mustafa Fazil Qəzənfər oğlu | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>02, 09, 16, 23 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | Nağıyev Arzu Nəsib oğlu | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18 (Tovuz rayonu)<br>28 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | Namazov Ramid Zakir oğlu | 02, 23 (Abşeron rayonu) | Bəxtiyar Məmmədov +99455 412 1986<br>50sayli_sd@meclis.gov.az |
| 98. | Nəbiyev Rizvan Novruz oğlu | 12, 21 (Xırdalan şəhəri) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 99. | Nəsirov Elman Xudam oğlu | 14, 28 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 100. | Novruzov Siyavuş Dünyamalı oğlu | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08 (Naxçıvan MR, Şərur rayonu)<br>25 (Naxçıvan MR, Kəngərli rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |

Ardı 7-ci səh.

# Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin daxili işlər nazirlərinin növbəti iclası keçirilib








**Mayın 23-də Bakı şəhərində Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü keçirilib.**

Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyəti Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra Zəfər parkına gələn qonaqlar Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Qələbəsini simvolizə edən Zəfər abidəsi önünə əklil qoyaraq şəhidlərə ehtiramlarını ifadə ediblər.

Görüşdə Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstan Respublikası daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak ediblər.

İclası açıq elan edən Vilayət Eyvazov iştirakçıları səmimiyyətlə salamlayaraq təşkilata üzv dövlətlərin xalqlarını sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, türk dövlətləri liderlərinin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində ölkələrarası dostluq və qardaşlıq münasibətlərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, strateji tərəfdaşlıq xarakteri daşıdığını, dövlət başçılarının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq dinamik inkişaf etdiyini, bu kontekstdə daxili işlər nazirlikləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini diqqətə çatdırıb.

İclasda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin daxili işlər nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi, transmilli mütəşəkkil cinayətkarlıqla birgə mübarizə, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi sahəsində məlumat mübadiləsi, informasiya texnologiyalarından istifadə edilməklə törədilən cinayətlərin qarşısının alınması, aşkar edilməsi, açılması üzrə əlaqəli fəaliyyət və təşkilatın daxili işlər orqanlarının rəqəmsallaşması sahəsində əməkdaşlığın perspektivləri kimi məsələlər müzakirə edilib.

Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin daxili işlər nazirlərinin növbəti görüşünün Qazaxıstan Respublikasında keçirilməsi qərara alınıb.

Tədbirdə tərəflər Türk Dövlətləri Təşkilatı daxili işlər nazirlərinin ikinci görüşünə dair Birgə Kommünike sənədini imzalayıblar.

Çıxışlarda təşkilata üzv və müşahidəçi dövlətlərin daxili işlər nazirlərinin ikinci görüşünün türk xalqları və dövlətləri arasında həmrəyliyin möhkəmləndirilməsinə növbəti təkan olacağına əminlik ifadə olunub, habelə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tədbirə evsahibliyi etməsinə görə təşəkkür edilib.

*"Azərbaycan"*

# Misirin Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik fəaliyyəti başa çatır

**Mayın 23-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar Misirin Azərbaycandakı səfiri Hişam Məhəmməd Nağı ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov səfirin ölkəmizdə diplomatik fəaliyyəti müddətində iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə verdiyi töhfəyə görə təşəkkürünü bildirib.

Nazir tarixi dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Misir münasibətlərinin xüsusi əhəmiyyət daşıdığını qeyd edərək, ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığı yüksək qiymətləndirib. İki ölkə arasında həm ikitərəfli, həm də İslam Əməkdaşlıq Təşkilatı, D-8 kimi çoxtərəfli platformalarda uğurlu əməkdaşlıq məmnunluqla vurğulanıb.

Görüşdə iki ölkənin liderlərinin 2023-cü və 2024-cü illərdə qarşılıqlı rəsmi səfərlərinin iki ölkə arasında münasibətlərə xüsusi təkan verdiyi qeyd olunub. Azərbaycan ilə Misir arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyəti və Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmə mexanizmlərinin intensivləşdirilməsi, həmçinin digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin iqtisadi, ticarət, turizm sahələrində əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb.

Misir səfiri Hişam Məhəmməd Nağı Azərbaycanda fəaliyyəti müddətində ona göstərilən diqqətə və dəstəyə görə təşəkkürünü bildirib.

# Baş prokuror BMT Baş katibinin müavini ilə görüşüb

**Vyanada işgüzar səfərdə olan baş prokuror Kamran Əliyev ilə BMT Baş katibinin müavini, Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (BMTNCİ) icraçı direktoru Qada Vali arasında ikitərəfli görüş keçirilib.**



Görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud olan yüksək səviyyəli münasibətlər və hüquq-mühafizə orqanlarımızla BMTNCİ arasında formalaşmış səmərəli əməkdaşlıq xüsusi məmnunluqla qeyd edilib. Bildirilib ki, son bir ildə Bakıda və Vyanada təşkil olunmuş birgə sessiyalar bu tərəfdaşlığın möhkəmlənməsinə, eyni zamanda cinayətkarlığa qarşı mübarizədə yeni yanaşmalar və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsinə mühüm töhfə verib.

Qada Vali BMT-nin qlobal antikorrupsiya platforması olan GlobE şəbəkəsinin 6-cı plenar iclasının Bakıda yüksək səviyyədə təşkili münasibətilə baş prokuror Kamran Əliyevi təbrik edib, hərtərəfli dəstəyə görə təşəkkürünü bildirib. O, tədbirin korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın dərinləşməsinə, yeni tərəfdaşlıqların qurulmasına və ümumilikdə dayanıqlı inkişaf məqsədlərinin reallaşdırılmasına xidmət etdiyini vurğulayıb.

Baş prokuror öz növbəsində GlobE şəbəkəsinin Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan beynəlxalq platforma olduğunu qeyd edərək bildirib ki, bu təşəbbüs ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsindəki mövqeyinin gücləndirilməsi baxımından mühüm vasitədir. O əlavə edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin plenar iclasın iştirakçılarına ünvanladığı müraciətdə ifadə olunduğu kimi, bu tədbir hökumət və dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edir.

Görüşdə həmçinin qlobal əhəmiyyət kəsb edən mühüm təşəbbüslər, o cümlədən Orta dəhliz boyunca hüquq-mühafizə əməkdaşlığının gücləndirilməsi və cinayətkarlığa qarşı regional səylərin əlaqələndirilməsi məsələləri müzakirə olunub. Bu kontekstdə Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə Dövlətlərarası Əməkdaşlıq Şəbəkəsi (CASC) çərçivəsində potensial əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər həmçinin Braziliyanın Belem şəhərində keçiriləcək COP30 konfransı ərəfəsində ətraf mühitin mühafizəsi, ekoloji cinayətlərə qarşı mübarizə mexanizmlərinin gücləndirilməsi istiqamətində birgə təşəbbüslərin mümkünlüyünü müzakirə ediblər.

Sonda qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi və konkret fəaliyyət planlarının hazırlanması istiqamətində razılıq ifadə olunub.

*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin iyun ayında vətəndaşların qəbulu cədvəli

*Əvvəli 6-cı səh.*

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 101. | Nurullayev Razi Qulaməli oğlu | 11 (İmişli rayonu)<br>21 (Bakı şəhəri) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayeva Könül Oruc qızı | 11, 25 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | Oruc Zahid Məhərrəm oğlu | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13, 27 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | Paşayeva Gülşən Məmmədəli qızı | 04, 15 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 105. | Paşazadə Cavanşir Hümmət oğlu | 17, 21 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | Polad Bülbüloğlu | 10, 25, 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 18, 28 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 /<br>+99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 14 (Naxçıvan MR, Ordubad rayonu)<br>21 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 05, 26 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>13,14, 26, 27 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salahlı Səyyad Adil oğlu | 17 (İmişli rayonu)<br>24 (Saatlı rayonu) | Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 112. | Salmanova Səbinə Qədir qızı | 11, 28 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | Seyidov Səməd İsmayıl oğlu | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 26 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | Seyidzadə Şahin Kamil oğlu | 04 (Şamaxı və İsmayıllı rayonları)<br>11 (Qobustan rayonu) | Elman Mikayılov +99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 115. | Səfərov Nizami Abdulla oğlu | 07, 28 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 116. | Səmədzadə Ziyad Əliabbas oğlu | 05, 19 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | Süleymanlı Mahir Tahir oğlu | 09, 15 (Şabran rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 118. | Şükürov Zaur Ramiz oğlu | 02, 19 (Sumqayıt şəhəri) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Ağalar İsrəfil oğlu | 04, 25 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyev Samir Əhməd oğlu | 04, 18 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Mehriban Hidayət qızı | 04, 18 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 122. | Vəliyeva Pərvanə Bulut qızı | 21, 28 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | Yıldırım Fatma Vidadi qızı | 14, 25 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | Zabelin Mixail Yuryeviç | 14, 28 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Türk həmrəyliyinin Avropa zirvəsi

**Sürətlə dəyişən dünya nizamı türk dövlətləri qarşısında da yeni çağırışlar formalaşdırır, regional və qlobal proseslər fonunda onların daha sıx əməkdaşlığını zəruri edir. Olduqca mühümdür ki, türk dövlətlərinin rəhbərləri çağdaş reallıqları düzgün dəyərləndirir, istər ikitərəfli, istərsə də çoxtərəfli formatlarda əlaqələrin dərinləşdirilməsi üçün hər bir imkanı səmərəli şəkildə səfərbər edirlər.**

### Türk dövlətləri arasında əlaqələrin inkişafında Azərbaycanın böyük rolu var

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü həm müasir çağırışların dəyərləndirilməsi, həm də qarşıda dayanan vəzifələrin müzakirəsi baxımından mühüm hadisə oldu. Dövlət başçıları çıxışlarında TDT-nin fəaliyyət perspektivləri ilə bağlı fikirlərini bildirdilər, təkliflər və təşəbbüslərlə çıxış etdilər.

Qeyd edək ki, TDT-nin yaranmasında və formalaşmasında, ümumiyyətlə, türk dövlətləri arasında əməkdaşlıq əlaqələrinin inkişafında Azərbaycanın böyük rolu var. Azərbaycan TDT-nin əsasının qoyulduğu ölkə olaraq təşkilatın fəaliyyətinin və türk respublikaları arasında əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayır. Bu mənada respublikamızın istər xarici siyasətində, istərsə də regionda-kı iqtisadi layihələrində türk dövlətlərinin maraqlarının müdafiə olunmasına xüsusi yer verilir. Bakı enerji və iqtisadi sferalarda türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsinə, onların regional və qlobal əməkdaşlığa cəlb olunmasına mühüm diqqət yetirir. Azərbaycanın təşəbbüsü ilə inşa edilən Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastruktur olmaqla türk dövlətlərinin iqtisadi əlaqələrinin genişlənməsinə xidmət edir. Azərbaycanın enerji layihələri isə dolayısı ilə türk dövlətlərini birləşdirir, Qazaxıstan və Türkmənistanın alternativ ixrac imkanlarını artırır. Türkiyə isə tranzit ölkə kimi neft-qaz boru kəmərlərinin faydasını görür. Əlbəttə ki, bütün bunlar Azərbaycanın türk həmrəyliyinə verdiyi dəyərli töhfələrdir.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxışında bu məsələlərlə bağlı ətraflı danışdı. "Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir", - deyən Prezident İlham Əliyevin çıxışında diqqətə çatdırdığı məsələlərin hər biri göstərir ki, Azərbaycanın həyata keçirdiyi layihələr türk dövlətləri arasında əməkdaşlığa nə qədər böyük töhfələr verir.

Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməsinin nəticəsidir ki, Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil etmişdir. Orta dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır. Hazırda Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir.

Azərbaycanın indiyədək TDT təşkilatının üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoyması da respublikamızın türk dövlətləri ilə əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi böyük töhfələrindəndir.

### 12-ci Zirvə görüşü bu il Azərbaycanda keçiriləcək

Budapeştdə keçirilən TDT Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə qeyd etdiyimiz kimi, təkliflər və təşəbbüslər irəli sürüldü, qarşıda dayanan məsələlərdən söz açıldı. Məsələn, Prezident İlham Əliyev ötən il rəsmi şəkildə təsis olunmuş Türk İnvestisiya Fondunun bu il fəaliyyətə başlamasının nəzərdə tutulduğunu bildirdi. Bu fond ticarət, logistika, infrastruktur, rəqəmsal iqtisadiyyat, energetika, sənaye, turizm və sahibkarlıq kimi milli prioritetlərin dəstəklənməsi üçün mühüm mexanizm kimi xidmət edəcək.

Prezident İlham Əliyevin qeyd etdiyi məsələlərdən biri Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən imzalanan "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi ilə bağlı oldu. Bu saziş "yaşıl enerji"nin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır. Azərbaycan və Qazaxıstan Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsinə dair mühüm birgə layihəyə də start veriblər və bu, Avrasiyada yeni rəqəmsal dəhlizin yaradılmasına yol açacaq.

Qeyri-rəsmi Zirvə görüşündə səsləndirildiyi kimi, türk kimliyi layihəsi də həyata keçiriləcək. Bu, vətəndaşlara öz milli şəxsiyyət vəsiqələri ilə üzv ölkələrə səfər etməyə imkan verəcək. Bu layihə Türkiyə və Azərbaycan arasında artıq reallaşdırılıb.

TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə imzalanan bəyannamə təşkilatın qarşısında dayanan vəzifələrin reallaşdırılması və üzv dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. 71 bənddən ibarət olan və bir çox məsələlərlə bağlı üzv dövlətlərin mövqeyinin əks olunduğu bəyannamədə Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu evsahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Bu il Azərbaycan TDT-nin 12-ci rəsmi Zirvə görüşünə evsahibliyi edəcək. Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşündə buna toxunan Prezident İlham Əliyev təşkilata üzv dövlətlərin rəhbərlərini rəsmi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət etdi. Budapeştdə imzalanan bəyannamədə Azərbaycanın bu Zirvə görüşünə evsahibliyi etməyə hazır olması da yüksək qiymətləndirilir.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

## Azərbaycan OPEC plusun sadəcə bir üzvü deyil

### Bu neft təşkilatının qəbul etdiyi qərarlarda ölkəmizin də sözünün gücü var

**Xəbər verildiyi kimi, OPEC plus alyansına daxil olan səkkiz ölkə iyul ayında neft hasilatını daha bir dəfə artırmağı nəzərdən keçirir. Bu, istehsalın üçüncü aydır dalbadal artması deməkdir.**



Hazırda gündəlik hasilatın 411 barel həcmində artırılması məsələsi müzakirə olunur. Bu da əvvəllər nəzərdə tutulduğundan üç dəfə çoxdur. Lakin yekun qərar hələ qəbul edilməyib. Hasilat həcmini könüllü məhdudlaşdıran həmin səkkiz ölkə keçirilən müşavirədə iyul strategiyasını nəzərdən keçirməyi planlaşdırır.

Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv və qeyri-üzv ölkələrin nazirlərinin keçən il iyunun 2-də onlayn formatda keçirilən 37-ci iclasını xatırlayaq. Həmin iclasda mövcud "Əməkdaşlıq Bəyannaməsi"nin müddətinin bu il yanvarın 1-dən dekabrın 31-dək uzadılması ilə bağlı qəbul edilmiş qərarı Azərbaycan da dəstəklədi. Yeni qərar OPEC plus ölkələrində mövcud xam neft istehsal səviyyəsinin 2025-ci ildə sabit saxlanılmasını, üç müstəqil mənbə tərəfindən istehsal göstəricilərinin qiymətləndirilməsinin bu ilin noyabrın sonuna qədər uzadılmasını və həmin nəticələr əsasında 2026-cı il üçün yeni baza səviyyəsinin müəyyənləşdirilməsini nəzərdə tuturdu. Yeni qərara uyğun olaraq 2025-ci ildə Azərbaycanın 551 min barel həcmində gündəlik xam neft hasilat kvotası dəyişməz qalırdı.

OPEC-ə üzv və qeyri-üzv ölkələrin nazirlərinin 38-ci iclası isə keçən il dekabrın 5-də keçirildi. OPEC plus ölkələri neft bazarındakı cari vəziyyəti müzakirə edərək 2026-cı ilin sonunadək hasilat göstəricilərini 39,7 milyon barel həcmində müəyyən etdilər. Bu razılaşmanı Azərbaycan da dəstəklədi. Azərbaycanın gündəlik 551 min barel həcmində olan mövcud xam neft hasilatı kvotasının isə bu dövrdə sabit saxlanılacağı bildirildi.

Xatırladaq ki, OPEC (ing. The Organization of the Petroleum Exporting Countries) neft ixrac edən ölkələr tərəfindən neftin qiymətinin tənzimlənməsi məqsədilə 1960-cı ildə Bağdadda keçirilən konfransda yaradılıb. Əvvəlcə təşkilata İran, İraq, Küveyt, Səudiyyə Ərəbistanı və Venesuela daxil olub.

Bu 5 ölkəyə sonradan Qətər (1961), İndoneziya (1962), Liviya (1962), Birləşmiş Ərəb Əmirlikləri (1967), Əlcəzair (1969), Nigeriya (1971), Ekvador (1973-1992), Qabon (1975-1994), Anqola (2007) və Ekvatorial Qvineya (2017) qoşulub.

Təşkilatın qərargahı 1965-ci ildən Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir. Hazırda OPEC-in 12 üzvü var: Əlcəzair, Konqo, Ekvatorial Qvineya, Qabon, İran, İraq, Küveyt, Liviya, Nigeriya, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Venesuela.

Qeyri-OPEC ölkələri (Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudan) təşkilatla OPEC plus formatında sıx əməkdaşlıq edir. OPEC plus əməkdaşlığının əsas məqsədi dünya neft bazarında tələb və təklifin uzlaşmasına nail olmaqdır.

Azərbaycanın OPEC-lə əməkdaşlığı təşkilatın iclaslarında müşahidəçi statusunda iştirakı ilə aktivləşib. 2016-cı ilin yanvar ayında Prezident İlham Əliyev Davos Dünya İqtisadi Forumunda çıxış edərkən neftin qiymətinin sabitliyinə nail olmaq üçün OPEC-ə üzv olan və olmayan ölkələrin bir araya gələrək yeni beynəlxalq enerji formatının yaradılması ilə bağlı təşəbbüs irəli sürüb, nəticədə OPEC plus formatı yaradılıb. Azərbaycan təşkilatla 2016-cı ilin dekabr ayından yaradılmış OPEC plus formatında sıx əməkdaşlıq həyata keçirir.

Əməkdaşlıq uğurla davam edir. İslam İnkişaf Bankı Qrupunun İllik Toplantısında iştirak etmək məqsədilə bu günlərdə Əlcəzair Xalq Demokratik Respublikasında səfərdə olan iqtisadiyyat naziri Mikayıl Cabbarovun OPEC Beynəlxalq İnkişaf Fondunun prezidenti Əbdülhəmid Əlxəlifə ilə görüşü də bunu təsdiqləyir. Görüşdə OPEC Fondu ilə Azərbaycan arasında mövcud əlaqələr yüksək qiymətləndirilib və bu əməkdaşlığın daha da gücləndirilməsi üçün birgə imkanların araşdırılmasının önəmi vurğulanıb. Regional və beynəlxalq iqtisadi inkişaf məqsədləri çərçivəsində tərəfdaşlığın əhəmiyyəti qeyd olunub.

Tərəflər dayanıqlı inkişaf, resursların səmərəli istifadəsi və gündəlikdə olan digər məsələləri müzakirə edib, infrastruktur layihələri çərçivəsində birgə fəaliyyət imkanlarını dəyərləndiriblər.

*Flora SADIQLI, "Azərbaycan"*



## TDT - yeni qlobal iqtisadi mərkəz

### Bu platforma türk iqtisadi əməkdaşlıq modeli kimi güclü və davamlı tərəfdaşlıq nümunəsidir

**Min illərin dərinliyindən boylanan ortaq yaddaş, bir soyun dilində səslənən eyni kəlmələr, oxşar ruhun tarixdə qoyduğu izlər bu gün Türk Dövlətləri Təşkilatının (TDT) kitabında yeni bir tarix yazır, bir bayraq altında toplaşan xalqların iradəsində, strateji addımlarında və texnoloji yüksəlişində əks-səda verir. TDT eyni kökdən boy verən bir çinar kimi beynəlxalq arenada ortaq mövqe sərgiləyərək, türk dünyasının qəti və kəskin söz deməsinə zəmin yaradır.**

Hazırda TDT-yə üzv ölkələr arasındakı çoxşaxəli əməkdaşlıq ticarət dövriyyəsinin artırılması, investisiya axınlarının asanlaşdırılması və regional bazarların birləşdirilməsi üçün yeni imkanlar sərgiləyir. Bu baxımdan mayın 20-22-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü təşkilatın gələcək inkişafı və regional əməkdaşlığın gücləndirilməsi baxımından çox əhəmiyyətlidir. Tədbir TDT üzv və müşahidəçi ölkələrinin ortaq maraqlarını və strateji hədəflərini müzakirə etmək üçün bir platforma rolunu oynayıb.

Deməliyik ki, bu görüş təşkilatın tarixində müşahidəçi dövlətdə keçirilən ilk sammit olaraq yaddaşlara hopdu. Tədbirdə TDT üzvü və müşahidəçi ölkələrin dövlət başçıları iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və rəqəmsal transformasiya kimi sahələrdə əməkdaşlığın inkişafı məsələlərini müzakirə ediblər. Azərbaycan sammitdə regional iqtisadi siyasətin formalaşdırılmasında liderliyini, ticarət, enerji və innovasiya sahələrində əhəmiyyətli mövqeyini bir daha nümayiş etdirib. Macarıstanın isə bu proseslərdə fəal iştirakı, həmçinin ölkənin TDT ilə əməkdaşlığını daha da möhkəmləndirmək niyyətini göstərib.

TDT arasındakı qarşılıqlı əlaqə iqtisadi əməkdaşlığın dərinləşdirilməsində, investisiya cəlbediciliyinin artırılmasında və qarşılıqlı sərmayə yatırımlarının təşviqində mühüm rol oynayır. Bu məqsədlə yaradılan Türk İnvestisiya Fondu kiçik və orta bizneslər üçün maliyyə dəstəyi təmin etməklə TDT daxilində iqtisadi fəallığın artmasına xidmət edir. Fond birgə sənaye parklarının və ortaq biznes platformalarının qurulmasına, region daxilində istehsalın diversifikasiyasına, texnologiya transferinə və əlavə dəyər yaradan sahələrin inkişafına şərait yaradır. Qazaxıstan və Özbəkistan kimi resurs baxımından zəngin, lakin bazara çıxışında çətinliklərlə üzləşən ölkələr üçün bu fond regional inteqrasiyanı gücləndirən effektiv vasitədir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Vüsalə Cəfərovanın fikrincə, Azərbaycanın TDT üzv dövlətlərinə yatırdığı investisiyaların həcmi 20 milyard dolları keçib ki, bu da ölkənin təşkilat içində artan təsirinə dəlalət edir. Azərbaycan Mərkəzi Asiya, Türkiyə və Avropa arasında strateji keçid nöqtəsi olaraq ticarət axınlarını və regional inteqrasiyanı asanlaşdırmaqda mühüm rol oynayır: "2024-cü ildə Azərbaycanın dəmir yolu tranzit tutumu 11 milyon tona çatıb, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu isə 5 milyon ton həcmə malik olub. Bu irəliləyiş Azərbaycanın Xəzər dənizindəki 50 ticarət gəmisi, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı və 8 beynəlxalq hava limanı kimi əsas infrastruktur layihələri ilə dəstəklənir. Bu da ölkənin vacib logistika mərkəzi rolunu gücləndirir. Azərbaycanın "Rəqəmsal Nəqliyyat Dəhlizi" adlanan, gömrük, fitosanitar və sərhəd nəzarətini asanlaşdıran vahid rəqəmsal platformanın inkişafında da mühüm rolu var ki, bu da dəhliz boyunca tranzit vaxtlarını və xərclərini azaldır".

Enerji əməkdaşlığı sahəsində ortaq bazar strategiyaları və "yaşıl enerji" keçidi mövzuları TDT-nin gündəmində olduğudan bu sahədə əməkdaşlıq sammitin digər əsas mövzusu olub. TDT-yə daxil olan ölkələr enerji resurslarına görə, dünyanın ən zəngin bölgələrindən birini təşkil edir. Azərbaycanın Xəzər hövzəsindəki qaz ehtiyatları, Türkmənistanın təbii qaz potensialı, Qazaxıstanın neft və uran ehtiyatları, Türkiyənin tranzit gücü və enerji diplomatiyası bu resursların effektiv paylaşımı üçün yeni imkanlar yaradır. Azərbaycan boru kəmərləri və enerji ötürmə xətləri inşa etməklə yanaşı, həm də günəş və külək enerjisi layihələrinə investisiya qoyur. Bu sahələr üzrə fəaliyyət TDT üzv dövlətlərinin qlobal enerji bazarındakı dalğalanmalara qarşı dayanıqlılığını artırmağı hədəfləyir.

Qeyd edək ki, Macarıstanla Azərbaycan arasında ayrıca siyasi, iqtisadi və regional təhlükəsizlik məsələlərində güclü strateji tərəfdaşlıq inkişaf edib. İki ölkə arasında ticarət sürətlə artıb və 2025-ci ilin ilk üç ayında ticarət dövriyyəsi 14,55 milyon dollara çatıb. Macarıstandan Azərbaycanın iqtisadiyyatına birbaşa investisiyalar isə 1 milyard dolları keçib. Ölkəmizin təbii qazının Avropaya ixracında əsas rol oynayan Trans-Adriatik Qaz Boru Kəməri (TAP) Macarıstan üçün Azərbaycan qazına çıxış imkanını genişləndirir. Bu layihə Macarıstanın enerji şəbəkəsində təbii qazın təchizat mənbələrini artırır və ölkənin enerji bazarının şaxələndirilməsinə xidmət edir.

Macarıstanın "MOL Group" şirkətinin "Azəri-Çıraq-Günəşli" yatağında payı və Bakı-Tbilisi-Ceyhan boru kəmərindəki iştirakı, SOCAR və Macarıstanın enerji şirkətləri arasındakı ticarət əlaqələri, imzalanmış təbii qaz müqavilələri Azərbaycan-Macarıstan enerji əməkdaşlığını gücləndirir. Macarıstan xüsusilə "Cənub qaz dəhlizi" layihəsindəki fəal iştirakı ilə Azərbaycanın enerji strategiyasına dəstək verir. Elə buradaca əlavə edək ki, Macarıstan TDT-də təkcə Azərbaycanla deyil, Qazaxıstanla da enerji əlaqələri yaradır. Qazaxıstanın zəngin enerji resursları, xüsusilə neft, qaz və uran ehtiyatları Macarıstanın bu ehtiyaclarını qarşılamaq potensialına malikdir. Ona görə də Macarıstanın enerji şirkətləri Qazaxıstanın enerji sektorunda investisiyalar və birgə layihələr vasitəsilə iştirak etməkdə maraqlıdır. Bu mənada Vüsalə Cəfərovanın fikirləri yerinə düşür: "Macarıstanın TDT-nin müşahidəçi dövləti olaraq Türk İnvestisiya Fonduna 100 milyon dollarlıq töhfəsi regionun iqtisadi inkişafını, onların arasındakı əlaqələrin dərinləşməsini nümayiş etdirir. Macarıstanın "MOL Group" şirkətinin Qazaxıstanın "Rozhkovski" qaz yatağında pay alması kimi enerji sahəsində əməkdaşlıqları iki region arasındakı əlaqələrin dərinləşməsini nümayiş etdirir".

Budapeşt zirvəsi 2024-cü ildə Azərbaycanda keçirilmiş Qarabağ sammitindən sonra ikinci qeyri-rəsmi TDT sammitidir. Bu sammit TDT daxilində iqtisadi əməkdaşlığın dərinləşdirilməsində mühüm bir addımdır. Tədbirdə qəbul olunmuş Budapeşt Bəyannaməsi TDT-nin perspektivlərini və strateji fəaliyyət istiqamətlərini bir daha vurğulayıb. Zamanın axarında sınaqlardan keçmiş türk xalqları sübut etdilər ki, ortaq dil təkcə danışıq vasitəsi deyil, eyni zamanda ortaq yolun, birgə gələcəyin rəmzidir. Bu da imkan verir deyək ki, iqtisadi bağlar gücləndikcə, enerji damarları birləşdikcə, rəqəmsal dünyada ortaq addımlar atıldıqca, türk dünyasının səması daha da işıqlanır.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Prezident İlham Əliyevin bir tələbi ilə

## Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin işğaldan azad edilməsindən bir il ötür

**Bu gün Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin azad edilməsindən bir il ötür. 24 may 2024-cü ildə qalib lider İlham Əliyevin bir tələbi ilə bu dörd kəndimizin üzərində suverenliyimiz təsbit olundu.**












Necə ki, 44 günlük Vətən müharibəsi zamanı kapitulyasiya aktına qol çəkən düşmən Müzəffər Ali Baş Komandan İlham Əliyevin tələbi ilə Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atılmadan, bir itki verilmədən qaytarmışdı, bu dəfə də belə oldu. Erməni işğalçıları 30 il ərzində işğal altında saxladıqları bu dörd kəndimizdən də birdəfəlik çıxıb getdilər.

Tarixi torpaqlarımızı əzəli sahiblərinə qaytaran Qarabağın xilaskarı İlham Əliyev Bağanıs Ayrımı, Aşağı Əskiparanı, Xeyrımlı və Qızılhacılı kəndlərini qətiyyətli tələbi ilə azad etməklə bir daha dünyaya göstərdi ki, Azərbaycan bir qarış torpağının da düşmən tapdağında qalmasına heç zaman imkan verməyəcək.

"Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax belə də olmalıdır. Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar", - deyə 10 may 2024-cü ildə Şuşaya köçən sakinlərlə görüşü zamanı qalib lider İlham Əliyevin söylədiyi kimi.

### Zəfərə aparan məqsədyönlü siyasət

Ötən müddətdə apardığı qətiyyətli, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycanı hərtərəfli inkişaf mərhələsinə yüksəldən Prezident İlham Əliyevin gündəliyində duran birnömrəli prioritet Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi idi. Beynəlxalq tribunalarda daim bu məsələni gündəmə gətirən dövlətimizin başçısı münaqişənin danışıqlar yolu ilə həllinə çalışırdı. Amma təcavüzkar Ermənistana himayədarlıq edən ölkə və qurumlar və bunların da başında münaqişənin danışıqlar yolu ilə nizamlanması üçün missiyalandırılmış ATƏT-in Minsk qrupu gəlirdi, vəziyyətin dondurulmasına və Azərbaycanın işğal faktı ilə barışmasına nail olmağa çalışırdılar. Keçmiş Qarabağ münaqişəsinin həlli mümkünsüz problem olduğu görüntüsünü yaradan riyakar Qərb təsisatları müharibə variantını istisna edirdilər.

Azərbaycan isə qətiyyən bu vəziyyətlə barışmaq niyyətində deyildi və hansı yolla olursa-olsun, istər sülh, istərsə də savaş, torpaqlarını azad etməkdə və bir milyona yaxın keçmiş məcburi köçkünümüzü öz yurdlarına qaytarmaqda israrlı və qətiyyətli mövqe sərgiləyirdi. Buna görə də ölkəmiz mümkün olan bütün variantlara hazırlıq işləri aparmış, hərbi potensialını gündən-günə artırmışdı.

2016-cı ildə baş verən 4 günlük Aprel döyüşləri artıq Azərbaycanın səbrinin daşdığının və torpaqlarımızın azadlıq günlərinin çox da uzaqda olmadığının göstəricisi oldu. Həmin tarixdə Lələtəpədə dalğalandırılan Azərbaycan bayrağı Şuşa, Xankəndi qələbələrimizin mayakı oldu.

27 sentyabr 2020-ci ildə çıxdığımız haqq savaşı cəmi 44 günə zəfərlə sonlandırıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı misilsiz qəhrəmanlıq göstərərək azad etdi. "Dəmir yumruq"la hərb meydanında darmadağın edilən Ermənistan ordusunun on mindən çox fərarisi oldu. 10 noyabr 2020-ci ildə Azərbaycana yalvararaq kapitulyasiya aktına imza atması Ermənistanı bir dövlət olaraq məhv olma təhlükəsindən xilas etdi.

### Tarixi qələbələr

Bundan sonrakı mərhələdə də ardıcıl olaraq milli maraqlarımızın təmini istiqamətində tarixi addımlar atıldı.

Azərbaycanın 10 noyabr tarixli üçtərəfli Bəyanatında nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunu vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 26 avqust 2022-ci ildə Laçın şəhəri, Zabux və Sus kəndləri düşmən tərəfindən boşaldıldı.

23 aprel 2023-cü ildə Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin quraşdırılması ilə ölkəmizin ərazi bütövlüyü təmin edildi, bayrağımız bütün sərhədboyu dalğalandırıldı. Növbə gəlib çatdı Qarabağda onilliklərdir kök salmış erməni separatizminin birdəfəlik məhv edilməsinə, "miatsum" ideyasının tabutuna son mismarı çalmağa.

2023-cü ilin sentyabrında həyata keçirilən 23 saatlıq antiterror tədbirləri sayəsində suverenliyimiz tam təmin olundu, konstitusiyamız bütün ərazilərimizdə qüvvəyə mindi, bayrağımız Xankəndidə dalğalandırıldı. İkiəsrlik erməni avantürasına cəmi üç ildə son qoyuldu və sərsəm "miatsum" ideyası tarixin zibilliyinə atıldı.

Tarixi qələbələrimizin növbəti halqası sözü imzası qədər kəsərli olan İlham Əliyevin cəmi bir tələbi ilə Qazaxın dörd kəndinin azad edilməsi oldu.

Hələ 2020-ci ildə Prezident İlham Əliyev qeyri-anklav kəndlərin qaytarılması məsələsini qaldırmış və ötən müddət ərzində mövzu daim gündəlikdə saxlanılmışdı.

Keçən il dövlətimizin başçısı yerli televiziya kanallarına müsahibəsində demişdi: "O ki qaldı işğal altında olan kəndlərə, hesab edirəm ki, bizim təklifimiz də çox məntiqlidir. Bildiyiniz kimi, orada anklav və qeyri-anklav kəndlər var. O kəndlər ki, anklav kəndlər deyil, həmin dörd kənd Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır".

Qeyd edək ki, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addımdır və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin xidmətinin məlumatına əsasən, həyata keçirilən delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilmiş və bununla Azərbaycanın Qazax rayonunun 4 kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının ərazilərinin Azərbaycana qaytarılması təmin edilib.

Beləliklə, 24 may 2024-cü ildə Azərbaycanın Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürüldü.

Həmin vaxt ölkəmizin lideri anklav kəndlərlə bağlı fikirlərini də qətiyyətlə bildirmişdi: "O kəndlər ki, anklav kəndlərdir, - çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, - həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir".

Zəfərimiz sayəsində həmin kəndlərin sakinlərinin də onilliklərdir çəkdikləri vətən həsrəti bitdi və tezliklə onlar da dədə-baba yurdlarına qayıdacaqlar.

Faşist ermənilərin adıçəkilən kəndləri zəbt edərkən hərbi cinayətlərə əl atmaları, 1990-cı il martın 23-dən 24-nə keçən gecə Bağanıs Ayrımda qətliam törətmələri tariximizin qan yaddaşıdır. Erməni vəhşiləri gecə vaxtı 400-dən çox əhalinin yaşadığı kəndə hücuma keçərək 17 evi yandırıb, kənd sakinlərini qətlə yetiriblər.

Bağanıs Ayrım faciəsindən sonra 8 mart 1992-ci ildə Xeyrımlı, 11 mayda Qızılhacılı, 4 iyunda Aşağı Əskipara kəndləri işğala məruz qalmışdı.

İkinci Qarabağ müharibəsində qazandığımız şanlı qələbə Qazaxın zəbt olunmuş kəndlərini də azadlığına qovuşdurdu.

İndi bu kəndlərimizdə də bayrağımızın əbədi dalğalandırılması Azərbaycanı tarixindəki ən qüdrətli çağlarına yetirən, xalqımızı başıuca, qalib edən Prezident İlham Əliyevin milli maraqlarımızı qətiyyətlə təmin etməsinin daha bir parlaq təzahürüdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qərbi azərbaycanlıların qayıdışı sülhün yaranmasında mühüm addım ola bilər

**Azərbaycanlıların Ermənistanın tərkibində olan Qərbi Azərbaycana - öz tarixi torpaqlarına qayıdışı məsələsi həmişə mühüm və siyasi baxımdan həssas olub. Azərbaycan sovet və postsovet dövründə öz yurd-yuvasından didərgin salınmış yüz minlərlə soydaşımızın tarixi yurdlarına qayıtmaq hüququnu hər zaman dünyaya bəyan edib.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında deyib ki, Türkiyənin paytaxtı Ankarada "Qərbi Azərbaycana qayıdış - insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilən beynəlxalq konfrans da bunun bir daha təsdiqidir. Təbii ki, istər Ermənistanda, istərsə də dünya erməniləri ilə sıx və uzun müddətdir bağlı olan müxtəlif xarici dairələrdə Azərbaycanın bu məsələdə tutduğu qətiyyətli mövqe kəskin reaksiya ilə qarşılanır, çox vaxt isə açıq həyasızlıqla üzləşir. Lakin tarixi reallıq və danılması mümkün olmayan faktlar rəsmi Bakının haqlı olduğunu aydın göstərir. Azərbaycanlıların öz torpaqlarına qayıtması tələbi ərazi iddiası deyil, tarixi ədalətin bərpası və beynəlxalq normalara söykənən Azərbaycan xalqının fundamental hüququnun həyata keçirilməsidir.

Deputat Prezident İlham Əliyevin Ankarada keçirilən beynəlxalq konfransın iştirakçılarına müraciətini xatırladıb: "Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir".

Siyasətçi qeyd edib ki, bu, etnik təmizləmə və mahiyyət etibarı ilə yerli əhalinin uzun sürən qovulma prosesinin başa çatması idi: "Lakin beynəlxalq ictimaiyyət və heç bir ölkə Ermənistanı bu faciəyə görə qınamayıb. Xarici qüvvələrin 44 günlük Vətən müharibəsinin və Qarabağdakı antiterror tədbirlərinin nəticələrinə görə rəsmi Bakını tənqid etmək cəhdlərini müşahidə etdikdə bunu hər zaman xatırlamaq lazımdır. Bu kontekstdə Prezident İlham Əliyevin qərbi azərbaycanlıların nə vaxt və hansı şəraitdə öz əzəli torpaqlarına qayıda biləcəkləri məsələsində Ermənistanın aydın mövqe ortaya qoyması ilə bağlı tələbi tamamilə haqqa söykənir. Dövlət başçısının qeyd etdiyi kimi, qərbi azərbaycanlıların geri qayıtmaq istəyi Ermənistana qarşı ərazi iddiaları demək deyil və İrəvan bu istəyi həmin prizmadan təqdim etmək cəhdlərini dayandırmalıdır. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəmindən çıxarılmayacaq. Bununla da cənab Prezident "Azərbaycanın ərazi iddiaları" mövzusunda erməni tərəfinin hər cür fərziyyələrini kökündən kəsdi".

K.Bayramov bildirib ki, rəsmi Bakının qonşu ölkəyə qarşı ərazi iddiası yoxdur, lakin haqlı olaraq qərbi azərbaycanlıların tarixi torpaqlarına qayıtması probleminin həllində israrlıdır. Beynəlxalq hüquq isə bizim tərəfimizdədir. Bir sıra beynəlxalq sənədlər qaçqınların öz evlərinə qayıtmaq və təzminat almaq hüququnu birbaşa tanıyır. Bütün bunlar isə təbii ki, Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın haqqıdır. Bakı bu məsələni rəsmi səviyyədə qaldırmaqla beynəlxalq hüquq normalarına uyğun hərəkət edir.

Deputat bildirib ki, azərbaycanlıların Ermənistana qayıdışı təkcə ədalətin bərpası deyil, həm də Cənubi Qafqazda əsl sülhün yaranmasında mühüm addım ola bilər: "Bakı sülh şəraitində birgə yaşayış və reinteqrasiya konsepsiyasını təklif edir. Bu kontekstdə Qərbi Azərbaycan ölkəmizin geri qaytarılmasını tələb etdiyi ərazi deyil, geri qayıdan yerli əhalinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməli olduğu bölgədir. Ermənistanda və müəyyən Qərb dairələrində bunu təhrif etməyə çalışsalar da, həqiqət budur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamaqdan başqa yolu yoxdur

**Ötən əsrin sonlarından başlayaraq, Azərbaycan Ermənistan silahlı qüvvələrinin və Qarabağda məskunlaşmış erməni separatçılarının hücumlarına və işğalına məruz qaldı. Dünyadakı havadarlarına arxalanan ermənilər bir neçə il ərzində ölkəmizin əbədi-əzəli torpaqları olan Qarabağı və ətraf rayonları ələ keçirdi.**

Təəssüflər olsun ki, bu işğalın ömrü 30 ilə yaxın davam etdi. Arxada qalan bu illər ərzində işğaldan əziyyət çəkmiş Azərbaycan ermənilər tərəfindən qəsb olunmuş ərazilərinin sülh, danışıqlar yolu ilə azad olunmasına çalışdı. Müharibəni, qan tökülməsini istəmirdi. Buna görə də beynəlxalq hüquq çərçivəsində sülh danışıqlarının aparılmasına üstünlük verirdi. Münaqişənin dinc yolla həll olunması üçün danışıqlar prosesində dünyada hörmətlə yanaşılan beynəlxalq konvensiyaları, aparıcı təşkilatların müvafiq qanunlarını, başlıcası isə BMT-nin məlum 4 qətnaməsini önə çəkdi. Amma sülh tərəfdarı olmayan işğalçı Ermənistan bəşəri dəyərlərə qarşı hörmətsizlik göstərdi, qəsb etdiyi əraziləri danışıqlar yolu ilə qaytarmaq istəmədi. Rəsmi İrəvan işğal etdiyi torpaqları azad etmək əvəzinə, ölkəmizin yeni ərazilərini ələ keçirəcəyi barədə sərsəm bəyanatlar səsləndirdi.

27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi də məhz Ermənistanın bu işğalçılıq planını həyata keçirməsi üçün atdığı addımlar nəticəsində başladı. 44 günlük Vətən müharibəsində zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində düşmən ölkənin silahlı qüvvələri darmadağın edildi. Əvvəllər sülhə arxa çevirən, danışıqlar masasında oturmaq istəməyən Ermənistan İkinci Qarabağ müharibəsində məğlub oldu. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında düşmən üzərində tarixi Zəfər çaldı.

İkinci Qarabağ müharibəsində qələbə qazanan Azərbaycan qalib dövlət kimi bəşəri dəyərlərə yenə də hörmətlə yanaşaraq məğlub Ermənistana müəyyən şərtlər əsasında sülh təklif etdi. Azərbaycanın təklifləri ilə sülh danışıqları başlandı. Rəsmi Bakının irəli sürdüyü şərtlər həm BMT-nin təməl prinsiplərinə, həm də digər beynəlxalq qanunvericiliyə əsaslanırdı. Aparılan ikitərəfli təmaslar bu yöndə mühüm nəticələrə gətirib çıxaracağına ümidlər yaradırdı. Vasitəçilərin iştirakı olmadan müəyyən görüşlərin keçirilməsi, təmasların olması, sazişin imzalanması ilə bağlı mövqelərin ortaq məxrəcə gətirilməsi sülhün elə də uzaqda olmadığını göstərirdi. Prezident İlham Əliyev iki ölkə arasında aparılan sülh danışıqlarından bəhs edərkən bildirmişdir ki, münaqişədən sonrakı vəziyyətə gəldikdə, Azərbaycan bu istiqamətdə çox fəal çalışır. "Azərbaycan məhz o ölkədir ki, baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı. İndi iki ölkə arasında danışıqlar gedir və bu danışıqlar bizim təkliflərin layihəsi üzərində aparılır. Demək olar ki, 30 il insanlar əziyyət çəkib, beynəlxalq hüquq pozulub, bizim bütün mədəni, tarixi məkanlarımız, o cümlədən 67 məsciddən 65-i erməni vandalları tərəfindən tamamilə məhv edilib. Qeyd edirəm ki, bəzi ölkələr Ermənistana dəstək verirdi".

Azərbaycanın şərtlərindən biri də Ermənistan konstitusiyasına müvafiq dəyişikliklərin olunmasıdır. O konstitusiyaya ki, Müstəqillik bəyannaməsinə istinad edir. Bu bəyannamədə isə "Dağlıq Qarabağ" ifadəsi fonunda Azərbaycana qarşı ərazi iddiaları üçün müəyyən müddəalar var. Digər şərtlərdən biri də tarixin arxivinə atılmalı olan, istər işğal dövründə, istərsə də Zəfərdən sonrakı zamanda heç nəyə yaramayan ATƏT-in Minsk qrupunun rəsmi olaraq ləğvi üçün Bakı və İrəvanın birlikdə müraciətlərinin ünvanlamasıdır. Gün kimi aydındır ki, Minsk qrupu otuz ilə yaxın müddətdə münaqişəni həll etmək adı altında erməni işğalını leqallaşdırmaq məqsədi güdübdü. Azərbaycan işğalda qalmış ərazilərini öz gücünə qaytarmaqla bunun qarşısını aldı. İndi Minsk qrupunun qalmasına, fəaliyyət göstərməsinə heç bir ehtiyac yoxdur.

Azərbaycan-Ermənistan arasında aparılan danışıqlar, sülh sazişinin imzalanması təşəbbüsü mayın 21-də Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə də müzakirə predmeti olub. Görüşdə iştirak edən dövlət başçıları çıxışları zamanı bu vacib məsələyə də münasibətlərini bildiriblər.

Prezident İlham Əliyev Macarıstanın Baş naziri ilə görüşündə mətbuata bəyanatla çıxışı zamanı İkinci Qarabağ müharibəsindən, Azərbaycan-Ermənistan arasında aparılan sülh danışıqlarından, sülh sazişinin imzalanmasının vacibliyindən bəhs edərkən demişdir: "Azərbaycan eyni zamanda dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya-Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur. İkinci Qarabağ müharibəsi beynəlxalq hüquq çərçivəsində - BMT-nin Nizamnaməsi əsasında aparıldı. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik".

Dövlətimizin başçısı daha sonra əlavə etmişdir: "Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı onu deyə bilərəm ki, sülh danışıqlarının İkinci Qarabağ müharibəsindən sonra təşəbbüskarı da biz olmuşuq. Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib. Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur".

Macarıstanın Baş naziri Viktor Orban da mətbuata bəyanatı zamanı Azərbaycan-Ermənistan arasında aparılan danışıqlara və sülh müqaviləsinin imzalanmasına toxunaraq bildirmişdir: "Mən Prezident Əliyevi təbrik etmək istəyirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzərində razılıq əldə olunub. Ümid edirəm ki, sülh müqaviləsinin imzalanması tezliklə baş tutacaq. Bu, olduqca vacib bir məsələdir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da qeyri-rəsmi Zirvə görüşündəki çıxışında Cənubi Qafqazda sabitliyin təmin olunmasında Azərbaycanın roluna yüksək dəyər verərək demişdir: "Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm".

Türk Dövlətləri Təşkilatının üzvləri olan digər dövlət başçıları da Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasını dəstəkləyirlər. Azərbaycan isə sülh müqaviləsinin imzalanması üçün şərtlərini çoxdan açıqlayıb. Bu şərtləri yerinə yetirmək rəsmi İrəvan üçün elə də çətin deyil. Necə deyərlər, indi söz Ermənistanındır. Əgər rəsmi İrəvan regionda əmin-amanlıq istəyirsə, müharibə tərəfdarı deyilsə, Azərbaycanın şərtlərini yerinə yetirməli, havadarlarının yalançı vədlərinə aldanıb şirin xəyallarla yaşamamalı, sülh müqaviləsini imzalamalıdır. İmzalanacaq sülh müqaviləsi Cənubi Qafqaza əmin-amanlıq gətirməklə yanaşı, iki ölkə arasında kommunikasiyaların açılmasına, əməkdaşlığa da təkan verə bilər. Buna isə Ermənistanın daha çox ehtiyacı var. Hazırda iqtisadi və siyasi çətinliklər burulğanında boğulan rəsmi İrəvanın Azərbaycanla sülh müqaviləsi imzalamaqdan başqa yolu yoxdur.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Jurnalist araşdırmasına yekun vururuq

# Adı olub, fəaliyyəti görünməyən "müdafiəçi"lər

## Boşluqlar hansı səbəbdən yaranır və aradan necə qaldırılmalıdır

### Hər şey belə başladı

Qəflətən evə qaz verilişi dayandı!

Aprelin soyuq keçdiyi bir ildə çay və xörək hazırlanmasında problem yaşandı, otaqların isidilməsi mümkün olmadı.

Ümid və əminliklə 104, ondan cavab çıxmadıqda isə 185 nömrəli çağrı mərkəzlərinə fasiləsiz zənglər etməyə başladıq!

Aprel ayının 5 və 6-da bütün cəhdlərimiz səmərəsiz olduqdan, yağışlı və soyuqlu günlərdə qazsız qaldıqdan sonra bu vaqeəni "jurnalist araşdırması"na çevirməyi qərara aldıq və səbirlə (başqa əlac yox idi) hadisənin sonunu gözləməyə başladıq.

Bütün cidd-cəhdimiz aprelin 19-da, nəhayət, 14 gündən sonra mavi qaz almağımızla nəticələnəndən sonra baş verənləri "Jurnalist araşdırması" rubrikası ilə "Azərbaycan" qəzetinin 16 aprel 2025-ci il tarixli nömrəsində, (№74 (9819) dərc etdik...

Sonra tənqidi yazını tədbir görülməsi üçün aidiyyəti qurumlara, habelə istehlakçıların hüquqlarını qorumalı olan təşkilatlara göndərdik.

Hansı "operativliklə" baş verən qəza aradan qaldırılmışdırsa, həmin "qaydada" eyni münasibəti əks etdirən tərzdə də tənqidi çıxışımıza cavablar aldıq.

Sən demə, 14 gün vətəndaşın qazsız, soyuqda qalmasında və buna səbəb olan səhlənkarlıq, məsuliyyətsizlik hallarında heç kəsin "təqsiri" yox imiş!

Sanki hər şey belə də olmalıymış!

Əlbəttə, söhbət kiminsə cəzalandırılmasından getmir!

Fakta münasibətdən və vəzifə borcuna məsuliyyətsiz yanaşmadan gedir!

Cavablar suallar doğurur.

Əziz oxucular, indi isə sizi "Azərbaycan"ın tənqidi çıxışına verilən cavablar və məsələnin hüquqi tərəfləri ilə tanış etmək istəyirik.

Redaksiyaya "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru **Azər MƏMMƏDOV** tərəfindən daxil olmuş cavab məktubunda (Qeyd edək ki, tədbir üçün SOCAR-a ünvanlanan məktubun da "Azəriqaz" İB-yə göndərildiyindən cavab hər iki qurumun mövqeyini ehtiva edir) deyilir:

*"Hörmətli Bəxtiyar müəllim!*

*Rəhbərlik etdiyiniz qəzetin 16.04.2025-ci il tarixli buraxılışında dərc olunan "Abonent qazsız qalıb, "Azəriqaz" isə sayğac axtarır" başlıqlı yazıda qeyd olunan problemlə bağlı SOCAR-ın baş ofisinə və "Azəriqaz" İstehsalat Birliyinə ünvanladığınız məktuba tərəfimizdən baxılmış və aidiyyəti üzrə araşdırılmışdır.*

*Media qrumu olaraq vətəndaşların qarşılaşdıqları çətinlikləri işıqlandırmanız və həmin məsələlər barədə dövlət qurumlarına məlumat verməyiniz təqdirəlayiqdir.*

*Lakin sözügedən yazıda göstərilən məsələyə birtərəfli yanaşma və bəzi nüansların nəzərə alınmaması səbəbilə rəsmi mövqeyimizi və araşdırmanın nəticəsini təqdim edirik.*

*Araşdırma nəticəsində məlum olmuşdur ki, abonent ona məxsus fərdi mənzildə G-6 markalı qaz sayğacının quraşdırılmasını və istismara qəbul olunmasını istəyir. Bildiririk ki, mövcud imkanlardan istifadə olunaraq abonentin mənzilində G-6 fərdi qaz sayğacı quraşdırılıb və həmin ünvanın qaz təchizatında heç bir problem yoxdur.*

*İstisna hallar olsa da, əsas hədəfimiz - abonentləri fasiləsiz, təhlükəsiz və dayanıqlı təbii qazla təmin etməklə müştəri məmnunluğuna nail olmaqdır.*

*Bu məsələyə diqqət ayırdığınız üçün Sizə təşəkkür edir, gələcəkdə "Azəriqaz" İB ilə bağlı yazılar dərc edilməzdən əvvəl Birliyin rəsmi mövqeyinin də öyrənilməsi və yazılarda əks olunmasını arzu edirik.*

***İB-nin baş direktoru Azər MƏMMƏDOV".***

Cavab məktubuna görə təşəkkür edirik.

Qarşıya çıxan bir neçə sualı da yenidən vətəndaşla müqavilə bağlamış təşkilata ünvanlayırıq:

"Birtərəfli yanaşma və bəzi nüansların nəzərə alınmaması"nı səbəb göstərməklə nə nəzərdə tutulur?!

Soyuqlu günlərdə abonent qazsız qoyulur, çağrı telefonları cavab vermir, çağırış qeydə alındıqdan sonra 14 gün ərzində sayğac dəyişdirilmir...

Bizcə, burada əsas nüans "Azəriqaz" İB tərəfindən müqavilə şərtlərinin pozulması və təmirçilərin, sayğac dəyişdirənlərin vəzifə borclarına məsuliyyətsiz yanaşmalarıdır!

Məktubdan isə aydın olur ki, bununla bağlı və gələcəkdə belə halların təkrar edilməməsi üçün heç bir tədbir görülməyib!

Azərbaycan Respublikası Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin cavab məktubunda isə bəzi nəzəri və əməli məsələlərə toxunulsa da, sonda atılan addım barədə konkret bir fakt göstərilmir:

*"Vətəndaşın şikayətinə baxılmasının cari statusu ilə bağlı bildiririk ki, müraciət agentlikdə qeydiyyata alınaraq icraata götürülmüşdür. Müraciətə qanuna müvafiq qaydada baxılaraq nəticəsi barədə vətəndaşa rəsmi məlumat veriləcəkdir.*

***Sədr Elnur BAĞIROV".***

Onu da qeyd edək ki, 8 may 2025-ci il tarixində hörmətli sədr **Elnur BAĞIROV** tərəfindən imzalanan məktub 13 may 2025-ci il tarixində poçta daxil olmuş və 16 may 2025-ci ildə redaksiyaya çatmışdır.

Başqa sözlə, jurnalist araşdırmasının qəzetdə dərcindən keçən bir ay ərzində (hələ hadisənin baş verdiyi müddəti nəzərə almırıq) müraciətə baxılaraq rəsmi cavab verilməmişdir.

Səbir və təmkinlə onu da gözləyirik!

### İstehlakçının hüquqları barədə

Pulunu qabaqcadan (smart sayğac vasitəsilə) ödədiyi halda heç bir təqsiri olmayan vətəndaşın qazsız qalması zamanı onun hüququ pozulurmu?

Başqa sözlə, bu məqamda təbii inhisarçı sayılan "Azəriqaz" İB-nin özündən asılı olanları yerinə yetirmədiyinə görə vətəndaşın ondan nəsə tələb və iddia etməyə qanuni haqqı varmı?

Bununla bağlı Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü **Fərhad NƏCƏFOVA** müraciət etdik.

Hüquqşünas məsələnin qanuni tərəflərini göstərdi:

*"Bu sahədə Vətəndaşın hüquqları "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının qanunları, "Qazdan istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 80 saylı qərarı və Azərbaycan Respublikasının Mülki və İnzibati Xətalar məcəllələri ilə müəyyən olunmuşdur".*

Sən demə, istehlakçının da qanunlarla qorunan hüquqları varmış:

*"Qaz xətlərinin qanunsuz olaraq kəsilməsi və ya istehlakçıya "Qazdan istifadə Qaydaları"nda nəzərdə tutulmuş hallarda yazılı bildiriş göndərilmədən qazın verilməsinin dayandırılması qadağandır. Bundan əlavə, qazın verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və qaz paylayıcısı tərəfindən istehlakçının iştirakı ilə aktla rəsmiləşdirildikdən sonra 1 gün müddətində qaz paylayıcısı tərəfindən qazın verilməsi bərpa olunmalı və aktın 1 nüsxəsi istehlakçıya təqdim edilməlidir".*

*"Həmçinin nəzərə almaq lazımdır ki, qaz təchizatçısı tərəfindən qazın verilişi istehlakçı üçün xidmətlərin göstərilməsi hesab olunur və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 19-cu maddəsinə əsasən, əgər qaz təchizatçısı xidmət göstərilməsinə dair müqavilənin icrasına vaxtında başlamırsa və ya çox ləng işləməsi işin vaxtında başa çatmamasına dəlalət edirsə, istehlakçının müqavilədən imtina etmək və itkilərin ödənilməsini tələb etmək hüququ vardır. Dolayısıyla istehlakçı olaraq sizinlə "Azəriqaz" İB arasında olan müqavilə münasibəti mülki xarakterli münasibət olduğundan siz "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunun 26-cı maddəsinə uyğun olaraq, hüquqlarınızın müdafiəsi ilə bağlı məhkəməyə müraciət edə bilərsiniz".*

### Boşluqlar məsuliyyətsizlikdən yaranır

Jurnalist araşdırmasının nəticəsi vətəndaşların hüquqlarının pozulmasına səbəb olan bəzi boşluqların mövcudluğunu da aşkara çıxardı.

Nədənsə indiyədək kimsə buna diqqət yetirməmişdir!

Məsələn:

* 104 və 185 saylı çağrı mərkəzlərinin "Azəriqaz" İB-nin yerli şöbələri ilə əlaqələri yox dərəcəsindədir, əks halda şikayətlərin araşdırılması həftələrlə vaxt aparmazdı;

* Qurumlara məxsus mətbuat xidmətləri isə mətbuatı izləmir, tənqidi yazılar araşdırılmır, qurumun müvafiq strukturları onlar tərəfindən hadisələr barədə operativ məlumatlandırılmır.

* SOCAR isə ona ünvanlanan müraciətləri araşdırmadan yerlərə göndərir, taleyi ilə maraqlanmadığından icrası nəticəsiz qalır.

* Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi şənbə və bazar günləri işləmir, hadisələrə çox ləng müdaxilə edir, pozulan hüququn bərpası üçün dərhal, qəti və təsirli tədbirlər görmür, daxil olan siqnalların nəticəsi ilə maraqlanmır.

Bax belə!

Qəzetin üzərinə düşən vəzifə nöqsanı görüb göstərmək, onun aradan qaldırılması üçün müəyyən təkliflər verməkdir.

Qalanı isə icraçı orqanların vəzifəsidir:

Bağladıqları müqavilə əsasında işləyərək vətəndaş məmnunluğu yaratmalı olan idarə və təşkilatların!

İstehlakçıların hüquqlarını qorumalı olan agentliyin vəzifəsi isə adına uyğun davranış nümayiş etdirməkdir.

Yazı-pozu ilə məşğul olaraq əsas vəzifəni unutmaq olmaz!

**"Azərbaycan"**

# "Böyük qayıdış" proqramı sürətlə icra olunur

## Kəngərli növbəti sakinlərini qarşılayıb

**"Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir". Bu fikirləri Prezident İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşü zamanı deyib. Dövlət başçısının da qeyd etdiyi kimi, işğaldan azad olunmuş ərazilərimiz sürətlə bərpa olunur.**









Qarabağ və Şərqi Zəngəzurun hər qarışında sürətli tikinti-quruculuq işləri gedir. Bunun nəticəsi olaraq 2022-ci ilin iyul ayından etibarən keçmiş məcburi köçkünlər mərhələli olaraq yurdlarına qovuşurlar. Bu yerlərdən biri artıq üçüncü qayıdış karvanını qarşılayan Ağdam rayonunun Kəngərli kəndidir.

Dünən daha 49 ailə (232 nəfər) Kəngərli kəndinə qayıdıb. Ağdam rayonundan 31 ailə (151 nəfər), Ağcabədi rayonundan 7 ailə (33 nəfər), Yevlax şəhərindən 3 ailə (13 nəfər), Bakı şəhərindən 3 ailə (11 nəfər), Bərdə rayonundan 2 ailə (11 nəfər), Mingəçevir şəhərindən 1 ailə (6 nəfər), Şəki rayonundan 1 ailə (4 nəfər), Oğuz rayonundan 1 ailə (3 nəfər) Kəngərliyə yola salınıb. Kəndin artıq 487 sakini var.

Kəngərli sakinlərinə qovuşan sayca 14-cü yaşayış məntəqəsi, Ağdam rayonunun isə ikinci kəndidir. Yaxın aylarda Kəngərli və Sarıcalı kəndləri kimi rayonun Xıdırlı kəndi də keçmiş məcburi köçkünlərə qucaq açacaq.

Təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulan Kəngərli şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşir. Birinci mərhələsinin açılışı mayın 10-da baş tutan Kəngərliyə bu mərhələdə 1279 nəfərin köçürülməsi planlaşdırılır. Ümumilikdə isə kənd 2544 nəfərin yaşayışı üçün nəzərdə tutulub. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Burada artıq 292 iki, üç, dörd və beşotaqlı fərdi ev tikilib.

Sakinlərini qarşılayan digər ərazilərimiz kimi burada da əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Kəngərlidə kənd körpələr evi-uşaq bağçası istifadəyə verilib. Müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqlarla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək. Bağçanın ərazisində meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb.

Kəngərli kəndində inşa edilmiş ikimərtəbəli klub-icma mərkəzində müxtəlif dərnəklər fəaliyyət göstərəcək. Burada əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait yaradılıb. Kənddə əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaradacaq yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati bina tikilib. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün iş otaqları var.

Böyük qayıdışın birinci mərhələsi bitənədək Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin, 34 min 500 ailənin daimi məskunlaşması təmin ediləcək. Bu gün artıq 14266 keçmiş məcburi köçkün əzəli torpaqlarında yaşayır. Qarabağ və Şərqi Zəngəzura köç yalnız əhalinin öz doğma yurdlarına qayıdışı ilə məhdudlaşmır, gələcəkdə bu ərazilərdə dayanıqlı və yüksək rifahlı həyatın təmin olunacağına inamı daha da gücləndirir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Qeyri-neft-qaz sənayesində özəl sektorun xüsusi çəkisi daha çoxdur

**Ölkəmizdə icra edilən iqtisadi islahatların əsas hədəfi Azərbaycanda qeyri-neft-qaz sənayesini inkişaf etdirməkdir. Məqsəd ölkənin enerji resurslarının satışından asılılığı aradan qaldırmaqdır. Hələlik ölkənin əsas ixrac və gəlir mənbəyi neft-qaz sektorudur. Bununla yanaşı, ildən-ilə qeyri-neft-qaz sektorundan əldə edilən gəlirlər də artır.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-aprel ayları Azərbaycanda 21 milyard manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Həmin dövrdə neft-qaz sektorunda məhsul istehsalı 3,4 faiz azalsa da, qeyri-neft-qaz sektorunda 5,3 faiz artım qeydə alınmışdır.

Sahibkarlığın inkişafı istiqamətində icra edilən iqtisadi islahatlar və bu sektora verilən dövlət dəstəyi qeyri-neft-qaz sənayesinin inkişafında əhəmiyyətli rol oynayır. Hesabat dövrü sənayedə qeyri-dövlət sektorunun payının 79,8 faiz olması da bunun sayəsindədir. Ümumi istehsalın 88,7 faizi sənaye məhsullarının istehsalı, 11,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Hesabat dövründə sahənin əsas məhsula olan əmtəəlik neft hasilatı 9,1 milyon ton, əmtəəlik təbii qaz hasilatı 12,9 milyard kubmetr təşkil etmişdir. Əmtəəlik neft hasilatı azalsa da, qaz hasilatında artım qeydə alınmışdır.

Emal sənayesində cari ilin yanvar-aprel aylarında 6 milyard 411,1 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalında 12,5, içki istehsalında 4, tütün məmulatları istehsalında 3,4 faiz artım müşahidə olunmuşdur.

Toxuculuq sənayesi, geyim, dəri və dəridən hazırlanan məmulatların, ayaqqabıların istehsalı sahələrində 188,2 milyon manat dəyərində məhsul istehsal olunmuşdur. Həmin sahədə keçən ilin eyni dövrü ilə müqayisədə dəri və dərindən hazırlanan məmulatların və ayaqqabı istehsalında yüksək artım olsa da, geyim istehsalında azalma qeydə alınmışdır.

Hesabat dövründə kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 730 milyon manatlıq məhsul istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əczaçılıq, kimya sənayesi məhsulları, rezin və plastik kütlə məmulatlarının istehsalında artım, karbamid, bir sıra plastmas məhsulların istehsalında azalma olmuşdur.

Kömpüter, elektron və optik məhsullarının, elektrik avadanlıqlarının istehsalı sahələrində cari ilin yanvar-aprel aylarında 73,8 milyon manatlıq məhsul istehsal edilmiş, ötən ilin müvafiq dövrü ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 2,7 dəfə, notbukların istehsalı 71,7 faiz artmışdır.

Qeyri-neft-qaz sənayesinin inkişafı ölkəmizin bir çox məhsullara olan tələbatının daxili istehsal hesabına ödənilməsində, idxalın azalmasında və ixracın artmasında önəmli rol oynayır. Hazırda bu sahə üzrə aparılan islahatlar davam edir. Həmin islahatlar çərçivəsində regionlarda, o cümlədən işğaldan azad olunmuş ərazilərdə yaradılan sənaye zonaları gələcəkdə daha çox məhsul istehsal etməyə imkan verəcək ki, bu da məqsədə nail olunacağı deməkdir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# "Vətənimə, ata yurduma qayıtdığım üçün çox xoşbəxtəm"

**"Vətənimə, ata yurduma qayıtdığım üçün xoşbəxtəm. Qarabağın hər guşəsindən bir parça torpaq götürmək mənim üçün böyük fəxrdir. Ali Baş Komandanımıza dərin təşəkkürümü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin".**



AZƏRTAC xəbər verir ki, bu sözləri Ağdam rayonunun Kəngərli kəndinə köç edən Davud Nəbiyev deyib.

Musiqi təhsili aldığını deyən Davud Nəbiyev qeyd edib ki, beş ildir bu fəaliyyətlə məşğuldur və təhsilini başa vurur: "Əminəm ki, təhsilimə orada davam edəcəyəm. Orada da Azərbaycan musiqisini dinləyəcəyəm".





# Ədəbiyyat





Görkəmli tədqiqatçılarımız

# Milli-mənəvi dəyərlər həyat və yaradıcılıq kredosudur

**Müasir Azərbaycan ədəbiyyatında folklorşünaslıq sahəsində elmi yenilikləri ilə seçilən alimlərimizdən biri də milli-mənəvi dəyərlər sevdalısı - Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin kafedra müdiri, akademik Muxtar (Kazımoğlu) İmanovdur.**



Folklorşünas alimin elmi əsərləri Azərbaycan nəsrində bədii psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, eləcə də folklorşünaslığın bir sıra aktual problemlərinə həsr olunub. O, "Müasir Azərbaycan nəsrində psixologizm", "Gülüşün arxaik kökləri", "Xalq gülüşünün poetikası", "Folklorda obrazın ikiləşməsi", "Folklor həm keçmiş, həm də bu gündür" kimi monoqrafiya və kitabların, çoxsaylı elmi əsər və məqalənin müəllifidir. 2009-cu ildə dosent, 2016-cı ildə professor elmi adını alan alim 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə isə həqiqi üzvü seçilib. Bütün bunlar elmi yaradıcılıqda klassik halallıq normalarına zərgər dəqiqliyi ilə əməl etmək mədəniyyətindən yoğrulmuş 40 illik gərgin fəaliyyətin nəticəsidir.

Muxtar İmanov 28 may 1955-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Axura kəndində anadan olub. Həmin kənddə orta məktəbi başa vurduqdan sonra ali təhsil almaq arzusu ilə Bakıya gəlib və 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olub. 1977-ci ildə universiteti bitirib və həmin il təyinatla (göndərişlə) Şərur rayonunun Həmzəli kənd orta məktəbində ədəbiyyat müəllimi kimi əmək fəaliyyətinə başlayıb. Pedaqoji-metodoloji fəaliyyətini zənginləşdirən Muxtar müəllim ədəbiyyatşünaslıq sahəsində daha böyük uğurlara nail olmaq məqsədilə 1980-1983-cü illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" ixtisası üzrə aspiranturasında təhsilini davam etdirib. Konseptual tədqiqatları ilə seçilən gənc tədqiqatçı o zaman Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olan akademik Məmmədcəfər Cəfərovun diqqətini çəkib və böyük alimin dəstəyi ilə araşdırmalarının fəaliyyət istiqamətini daha da genişləndirib. Onun ilk tədqiqatlarında Azərbaycan yazılı və şifahi ədəbiyyatında qəhrəman və əvəzedici, qəhrəman və antiqəhrəman problemləri araşdırma predmetinə çevrilib, bədii obrazın ikiləşməsinin mifdən gələn və folklorun müxtəlif janrlarında əksini tapan, yazılı ədəbiyyatda daha mürəkkəb şəkildə ortaya çıxan səciyyəvi modelləri müəyyənləşdirilib.

M.İmanov böyük zəhmət və həvəslə 1984-cü ildə "Müasir Azərbaycan nəsrində psixologizm" mövzusunda namizədlik, 2007-ci ildə "Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" mövzusunda doktorluq dissertasiyaları müdafiə edib. Alim AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışarkən tədqiqatları opponentlərində məmnunluq doğurub. Ötən əsrin 90-cı illərinin ortalarında Ümummilli Lider Heydər Əliyevin milli-mənəvi dəyərlərin qorunması, tədqiqi və təbliği, habelə ümumtürk ədəbi əlaqələrinin öyrənilməsi istiqamətində akademik Yaşar Qarayevin moderatorluğu ilə ərsəyə gələn " Folklor Sarayı" Elmi-Mədəni Mərkəzində böyük elmi işçı kimi çalışıb. Mərkəz 2003-cü ildə Folklor İnstitutuna çevrildikdən sonra isə türk xalqları folkloru şöbəsinin aparıcı elmi işçisi kimi fəaliyyət göstərib. 2011-2024-cü illərdə AMEA Folklor İnstitutunun direktoru vəzifəsində çalışan alim habelə həmin dövrdə "Folklorşünaslıq" ixtisası üzrə Dissertasiya Şurasının və Folklor İnstitutu Elmi Şurasının sədri olub.

M.İmanov 2011-2019-cu illərdə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzində (əvvəlki Tələbə Qəbulu üzrə Dövlət Komissiyası) Ədəbiyyat fənni üzrə Elmi-metodiki seminarın rəhbəri və Ekspert Şurasının sədri kimi fəaliyyət göstərmişdir. 2012-ci ildə İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasının üzvü seçilən alim 2017-ci ildən 2023-cü ilədək həmin şuranın sədri kimi çalışmışdır. 2024-cü ilin iyun ayından etibarən onun əmək fəaliyyəti Azərbaycan Dillər Universiteti ilə bağlı olmuşdur. Hazırda həmin universitetdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiridir.

Muxtar İmanov ədəbiyyatşünaslıq və folklorşünaslığa aid çoxsaylı əsərin müəllifidir. O, Azərbaycan nəsrində psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, folklor və yazılı ədəbiyyat əlaqələri ilə bağlı mübahisəli məsələlərin araşdırılmasına, şifahi və yazılı söz sistemlərindəki özünəməxsus qanunauyğunluqların üzə çıxarılmasına, eposun qeyri-səlis məntiq nəzəriyyəsi baxımından öyrənilməsinə, habelə folklorşünaslığın bir sıra digər aktual problemlərinə həsr edilən 12 kitabın müəllifidir.

300-dən artıq elmi məqalənin, çoxsaylı publisistik yazının müəllifi olan M.İmanovun elmi araşdırmaları arasında psixologizm problemi və xalq gülüş mədəniyyəti ilə bağlı monoqrafiyaları konseptuallığı baxımından humanitar-filoloji elmimizdə xüsusi rezonans doğurmuşdur. Qeyri-səlis məntiqin eposa tətbiqi sahəsindəki araşdırmaları multidissiplinar tədqiqatların nümunəsi kimi diqqət mərkəzində olmuşdur.

Folklorun toplanması, tərtib və nəşr edilməsi ilə də ardıcıl məşğul olan alim bu sahədə bir çox kitabın, o cümlədən "Bu yurd bayquşa qalmaz" , "Zəngəzur folkloru" (Azərbaycan folkloru antologiyası. VII kitab), "Şərur folklor örnəkləri" (I kitab), "Gədəbəy folklor örnəkləri" (I kitab), 10 cildlik "Qarabağ: folklor da bir tarixdir", 16 cildlik "Güney Azərbaycan folkloru" , 4 cildlik "Qərbi Azərbaycan folkloru" , "Şifahi sənət və yazılı ədəbiyyat" toplularının layihə rəhbəri və tərtibçilərindən biridir. Müasir texniki vasitələrlə, dünya standartlarına uyğun toplanan və nəşr edilən materiallar Azərbaycan folklorunun yeni əsaslarla öyrənilməsində bu gün də əvəzsiz qaynaq rolu oynayır. Qarabağdan toplanmış 30-a yaxın nağıl süjetinin beynəlxalq Aarne-Tompson kataloqunda qarşılığının olmaması onu deməyə əsas verir ki, Muxtar İmanovun rəhbərliyi ilə 2011-ci ildən AMEA Folklor İnstitutunda başlanan toplama, tərtib, nəşr və tədqiq işləri dünya folklorşünaslığında janrlar üzrə elmi təsnifatların aparılması baxımından mühüm əhəmiyyət daşıyır.

Bir çox əsəri xarici ölkələrdə çap edilən alim Almaniya, Fransa, Rusiya, Türkiyə, Gürcüstan, Kipr və digər ölkələrdə keçirilən çox sayda beynəlxalq elmi simpozium, konfrans və konqresdə məruzə ilə çıxış etmişdir. Muxtar İmanov həmçinin Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci "Şuşa qrantı" birgə müsabiqəsinin (2013) qaliblərindən olmuşdur. Onun rəhbəri olduğu "Türk xalqlarında dövlət simvol, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi" layihəsi AMEA Rəyasət Heyətinin qərarı ilə akademiyanın elmi-tədqiqat proqramları sırasına daxil edilmiş və uğurla icra olunmuşdur.

70 illik yubileyini bu günlərdə böyük təntənə ilə qeyd edəcəyimiz milli-mənəvi dəyərlər sevdalısı, alim, dəyərli pedaqoq Muxtar İmanovun ictimai, elmi və elmi-təşkilati fəaliyyəti dövlət qurumları, eləcə də elmi və ictimai təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Muxtar İmanov elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomuna və AMEA Rəyasət Heyətinin fəxri fərmanına, Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun "Bilim Onur Ödülü"nə (2021), həmçinin Mahmud Kaşğari adına Beynəlxalq Fondun "Mahmud Kaşğari", Qazaxıstanın Əl-Fərabi adına Milli Universitetinin yubiley medallarına, Özbəkistanın Miqumi adına Kokand Dövlət Pedaqoji İnstitutunun "Fəxri professor"u adına layiq görülmüşdür.

Azərbaycan humanitar elminin inkişafında xidmətləri olan akademik Muxtar İmanovun rəhbərliyi altında 15 fəlsəfə doktoru və 4 elmlər doktoru yetişmişdir. Bu missiyanı həyat kredosuna çevirmiş görkəmli alim bu gün də böyük həvəslə fəaliyyətini davam etdirməkdədir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Ədəbiyyat xadimlərimiz

# Alim ömrü

**Elmin inkişafında əməyi böyük, yeri əvəzedilməz olan ədəbiyyatşünas, dilçi, şərqşünas-filoloq, pedaqoq Əkrəm Cəfərin anadan olmasından 120 il ötür. O, 1905-ci ilin mayında İsmayıllının Lahıc kəndində dünyaya göz açıb. İlk təhsilini mollaxanada alan Əkrəmə həmin məktəbdə yalnız "Qurani-Kərim"i oxutmadılar, ərəb və fars dillərini də öyrətdilər. Sonra yeni üsullu məktəbdə oxudu. Təhsil üsulu ilə bir-birinə bənzəməyən bu iki məktəb balaca Əkrəmin həyatında və dünyagörüşünün formalamasında böyük rol oynadı.**



1920-ci ilin oktyabrında Bakıya gəlməkdə məqsədi təhsilini davam etdirmək idi. Darülmüəlliminə daxil oldu. Həmin məktəbi 1925-ci ildə başa vurdu. İki ilə yaxın Lənkəran şəhərində, sonra Qazax Pedaqoji Texnikumunda müəllim kimi fəaliyyət göstərdi. Bu peşəni çox sevirdi. Müəllimlikdən sonralar da ayrılmayacaqdı. Ancaq hələ Darülmüəllimin tələbəsi ikən ədəbiyyata sevgisini və marağını "Maarif və mədəniyyət", "Şərq qadını" jurnallarında dərc olunan şeirləri ilə ifadə edirdi.

Darülmüəllimində oxuduğu illərin yaddaşında əbədi iz saldığı xatirələrində onu kövrəldən bir sima da vardı. Əkrəm Cəfər yada salırdı: "O zaman "Qubernator bağı"nda Belinski adına uşaq kitabxanası vardı. Burada cümə günləri "Cocuqlar sabahı" keçirilirdi. Məktəblilər hər cümə günü buraya yığışıb bədii çıxışlar edirdilər. Mən də "Cocuqlar sabahı"na gedirdim, çıxış edən uşaqlara tamaşa edirdim. Uşaqlar arasında bir əsmər oğlan da gözə dəyirdi. Onun şeir oxuması mənə çox xoş gəlirdi. Həmin oğlanın özünəməxsus pafosu, əl-qol, baş və mimika hərəkətləri mənə xüsusi təsir bağışlayırdı. Bir dəfə yığıncaqdan sonra bir-birimizə yaxınlaşdıq, tanış olduq. Mən də o zaman şeirə bərk aludə idim. Bizi bir-birimizə bağlayan, sevdirən də hər ikimizin şeirə məhəbbəti idi. 1922-1923-cü ildə dərs ili başlanmışdı. Bir gün birdən həmin əsmər oğlanı - Mikayılı Darülmüəllimində koridorda gördüm. Gözəl bir sevinc ruhumuzu qapladı. Mikayıl da Darülmüəlliminə oxumağa girmişdi. O gündən biz artıq, sadəcə, tanış deyil, iki yaxın, səmimi dost idik".

Əkrəm Cəfər bu xatirəni ömrünün ahıl çağlarında kövrək duyğularla yada salmışdı. O, yaşa dolmuşdu, yaddaşındakı həmin istedadlı şair - Mikayıl Müşfiq isə elə gənc yaşlarında qalmışdı...

O illər Əkrəm Cəfər də daha çox şair idi. Filologiya elmləri doktoru Vaqif Yusifli deyir ki, 1923-cü ildən 1931-ci ilə qədər Əkrəm Cəfər əsasən mətbuatda şeirləri ilə çıxış etmişdir: "Bir xəyal", "Rəsmin", "Çadralı qadın", "Şərq qadını və işıq", "Gələcəyə", "Şeir", "Zövq içində təhəssür", "Burjuy dilənçi", "Lokomotiv", "Böyük şəhər", "Hüseyn Cavidə açıq məktub"... Təbii ki, bu şeirlərdə o dövrün müəyyən əhvali-ruhiyyəsi hiss olunur".

Əkrəm Cəfər 1929-cu ildə ali təhsil almaq üçün Moskvaya göndərildi. Sovet İttifaqının paytaxtında İkinci Dövlət Universitetinin Rus dili və ədəbiyyatı fakültəsinə daxil oldu. Əla qiymətlərlə oxudu. 1932-ci ildə universiteti bitirdi. Savadına, istedadına və öyrənmək həvəsinə görə onu həmin təhsil ocağında müəllim saxladılar və aspiranturaya qəbul olundu. Əkrəm həmçinin təhsil aldığı illərdə fəallığı ilə də seçilirdi. O, 1929-1931-ci illərdə universitetdə oxuya-oxuya Moskva Proletar Yazıçılar Cəmiyyəti Azərbaycan bölməsinin katibi seçildi, Maksim Qorki adına Ədəbiyyat İnstitutu, Moskva vilayəti axşam və qiyabi pedaqoji institutlarında ümumi dilçilik fənnindən dərs dedi. Gənc Əkrəm aspiranturanı 1935-ci ildə bitirsə də, Moskva ilə dərhal vidalaşmadı. Orada iki ilə yaxın elmi işçi kimi fəaliyyət göstərdi. Bakıya 1937-ci ildə gəldi. Əvvəlcə Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti), sonra isə Azərbaycan Dövlət Universitetində (hazırda Bakı Dövlət Universiteti) kafedra müdiri vəzifəsində çalışdı. Elmi fəaliyyətinin ilk uğurlarından biri 1941-ci ildə müdafiə etdiyi "XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri - 1905-1936-cı illər" adlı namizədlik dissertasiyası oldu.

Ancaq həmin illər onu izləyən, arzularına tərcüman olan yalnız uğurları deyildi. Sovet hökumətinin repressiya burulğanı onun da həyatını təlatümlərə saldı. Hüseyn Cavid, Əhməd Cavad və Mikayıl Müşfiq kimi xalqının təəssübkeş və istedadlı övladları ilə əlaqələrinə görə Əkrəm Cəfər 5 sentyabr 1942-ci ildə həbs edildi. O, Kuybışev şəhərində yerləşən həbs düşərgəsinə göndərildi. Sonralar Krıma köçürüldü. Azadlığı əlindən alınan gənc alimi həbs düşərgələrində gördüyü məşəqqətlər sındıra bilmədi. Lakin elmi fəaliyyəti məhdudlaşdırılan istedadlı alimin həmin illərdə neçə-neçə araşdıması yarımçıq, əsərləri yazılmamış qaldı.

1949-cu ildə sürgün cəzası bitdi. Amma sürgündən əvvəlki həyatına dönməyə Stalin rejimi imkan vermirdi. Bundan sonrakı cəza vətənindən, ailəsindən uzaqda yaşamaq idi. Əkrəm Cəfər də sürgündən azad ediləndən sonra Azərbacana buraxılmadı. O, Türkmənistanın Mərv vilayətinə getdi. Beş il də orada yaşamalı oldu. Vətəninə yolu "ellər atası"nın ölümündən sonra açıldı. Əkrəm Cəfər 1954-cü ildə bəraət alaraq Azərbaycana döndü. Vətəndə elmi-pedaqoji fəaliyyətini davam etdirdi. Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində "Qədim türk yazılı abidələri" fənnindən dərs dedi.

Sürgün illərində çəkdiyi əzablar onu ruhən daha da möhkəmləndirmişdi. Yorulmaq bilmədən araşdırmalarını davam etdirir, yeni əsərlər yazırdı. 1969-cu ildə "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu ərəb, fars, türk, tacik və özbək əruzları ilə müqayisədə" adlı dissertasiyanı müdafiə edərək filologiya elmləri doktoru adı aldı. Bu, alimin Azərbaycan filologiya elminə verdiyi növbəti sanballı töhfə idi.

Əkrəm Cəfərin 1977-ci ildə "Elm" nəşriyyatında çap olunan "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə)" əsərini ədəbiyyatşünas alim Vafiq Yusifli onun şah əsəri adlandıraraq yazır: "Bu, elə bir kitabdır ki, klassik poeziya araşdırıcıları onsuz keçinə bilməz. Bu, elə bir kitabdır ki, Yaxın və Orta Şərq filologiyasında bir neçə xalqın əruzu ilk dəfə olaraq müqayisəli üsulla tədqiq olunur. Oxucu və araşdırıcı məhz bu kitab vasitəsilə Yaxın və Orta Şərq poeziyasında işlənən əruz vəzninin bütün qayda-qanunlarını öyrənir. Oğlu Sokrat Cəfər atasının xatirəsinə həsr etdiyi məqalədə yazır ki, bu əvəzsiz tədqiqatın bir nüsxəsi İngiltərə kraliçası Yelizavetanın xahişi ilə Londona göndərilərək Bodlean kitabxanasında saxlanılır".

1954-cü ildən Nizami adına Ədəbiyyat İnstitutunda (hazırda Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu), sonra isə Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifəsində çalışan görkəmli alim bir sıra beynəlxalq simpoziumlarda və konfranslarda iştirak etmişdir.

Atasının elm yolunu davam etdirən Sokrat Cəfər yazır: "Dilşünaslıq elementləri" (1940), "Müasir Azərbaycan dili oçerkləri" (1941), "Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə)" (1977), "Mirzə Ələkbər Sabir şerinin qafiyə lüğəti" (2006) kimi monoqrafiyaları, "Füzuli şeirinin vəzni" (1958), "Nəsiminin böyüklüyü nədədir?" (1973), "Hafiz Şirazi qəzəllərinin vəzni haqqında" (1963), "Böyük türk şairi Tofiq Fikrət" (1969), "Türk filologiyasında şeir vəznlərinin bəzi mübahisəli məsələlərinə dair" (1971), "Nəsimi şeirində qafiyə zənginliyi" (1973), "Sabir şeirində iri şəkillər" (1964), "Sabir şerində kiçik şəkillər" (1962) və s. kimi böyük elmi-nəzəri çalışmaları, "Ömər Xəyyam. Rübaiyyat" (1984) kimi poetik tərcümələri, Nizami, Xaqani, Füzuli, Hafiz Şirazi, Sədi Şirazi, Tofiq Fikrət, Hüseyn Cavid, Sabir kimi klassiklərin əsərlərinə yazdığı dərin məzmunlu fəlsəfi şərhlər, "Türk dillərinin öyrənilməsində müqayisəli-tarixi metodun tətbiqi tarixindən" (1957), "Türk dilləri sistemində Azərbaycan dilinin yeri" (1963), "Azərbaycan klassik ədəbi dilinin Azərbaycan dialektlərinə münasibəti" (1958) və s. kimi türkoloji məqalələri Əkrəm Cəfərin şərəfli ömründə nəşrlərinə nail ola bildiyi əsərlərindəndir".

Şair Xəlil Rza Ulutürk isə Əkrəm Cəfər haqqında yazırdı: "Misilsiz ictimai xadim, nəhəng pedaqoq, görkəmli ədəbiyyat nəzəriyyəçisi, gəncliyin böyük dostu, beynəlmiləl əqidəli təfəkkür sahibi olan ustad Əkrəm Cəfərin məşəl kimi yanan qəlbi - Nizami, Dante, Əbdülhəqq Hamid, Füzuli, Şekspir, Sabir, Xəyyam, Hafiz, Əbu Əli İbn Sina, Mayakovski, Nazim Hikmət, Səməd Vurğun, Hüqo, Müşfiq, Mirzə Fətəli, Vaqif, Cabbarlı, Jan Jak Russo kimi elmi-sənət korifeylərinin əbədi məskən saldıqları müqəddəs ocaqlardan biri olmuşdur. Bu cür dahi şəxsiyyətlər Əkrəm Cəfərin təfəkkür asimanında alışıb-yanan günəş təsiri bağışlayırdılar".

Ömrünün ən coşqun illərini sovet rejiminin əsassız ittihamları ilə ağır zindanda, sürgündə keçirən Əkrəm Cəfərə Azərbaycanın yenidən istiqlalına qovuşduğu günləri görmək də qismət oldu. 18 avqust 1991-ci ildə dünyasını dəyişmiş alim İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Tacikistan Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı guşəsi açılıb

**Tacikistan Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı guşəsinin açılış mərasimi olub. Guşə Tacikistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində açılıb.**



Bildirilib ki, tədbirdə Azərbaycanın mədəniyyət nazirinin müşaviri Oleq Əmirbəyov, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Tacikistan Milli Kitabxanasının direktoru Farzalizada Cumaxon, eləcə də hər iki ölkənin nazirlik və Milli Kitabxana nümayəndələri, elmi-ictimai xadimlər və media mənsubları iştirak ediblər.

Guşədə oxuculara 250-dən artıq nəşr təqdim edilir. Burada Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı və müasir inkişafına dair nəşrlər yer alıb.

## Xalq şairləri Rəsul Rza və Nigar Rəfibəylinin kitablarının təqdimatı olacaq

**Mayın 24-də "Qanun" nəşriyyatında Xalq şairi Rəsul Rzanın yeni çapdan çıxmış "Azərbaycan poeziyası. Seçmə şeirlər" kitabının təqdimatı keçiriləcək.**




Nəşriyyatın Azərbaycan ədəbiyyatı redaksiyası tərəfindən "Azərbaycan poeziyası. Seçmə şeirlər" layihəsi çərçivəsində işıq üzü görən kitab şairin 115 illik yubileyinə həsr olunub. Kitabın "Ön söz" müəllifi filologiya elmləri doktoru Cavanşir Yusiflidir. Tədbirdə Xalq şairi Nigar Rəfibəylinin eyni seriyadan bir az əvvəl işıq üzü görmüş kitabı da oxuculara təqdim ediləcək.

Xatırladaq ki, "Qanun" nəşriyyatı "Azərbaycan poeziyası. Seçmə şeirlər" seriyasından Füzuli, Xətai, Vaqif, Vidadi, Məhəmməd Hadi, Əhməd Cavad, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Cabir Novruz, Nəbi Xəzri, Məmməd Aslan, Vaqif Səmədoğlu, Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub kimi görkəmli Azərbaycan şairlərinin kitablarını çap edib.

Növbəti mərhələdə digər görkəmli şairlərin kitablarının nəşri nəzərdə tutulur.

## IV Sumqayıt Kitab Sərgisi keçiriləcək




**Mayın 27-28-də "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyi (ANAİB) və Sumqayıt Dövlət Universitetinin (SDU) birgə təşkilatçılığı ilə IV Sumqayıt Kitab Sərgisi təşkil ediləcək.**

Sərgi Sumqayıt Dövlət Universitetinin inzibati binasında keçiriləcək.

Sərgidə SDU tələbələri ilə yanaşı, Sumqayıt sakinlərinin də iştirak etməsi üçün universitetdə "Açıq qapı günü" elan olunub.

Sərginin ilk günü milli mətbuatın yaranmasının 150 illiyinə, ikinci günü isə Müstəqillik Gününə həsr ediləcək.

Bayram əhvali-ruhiyyəli sərgidə minlərlə kitab 90 faizədək endirimlə təklif olunacaq, tanınmış yazıçıların, şairlərin təqdimat və imza mərasimləri, məşhurlarla görüşlər, şeir saatları təşkil olunacaq.

Yazıçılar Şəmil Sadiq, Varis, Elxan Elatlı, Aynur Cavid, Elgüsel, Əziz Sultan, Səxavət Məmməd, Mürşüd İsmayılzadə, Əziz Yaqubzadə, tarixçi Boran Əziz, təlimçilər Aysel Rəsulzadə, Orxan Şahbaz, musiqiçi Hüseyn Cəfərin iştirakı ilə müxtəlif panellər, təqdimatlar, imza günləri, şeir gecələri və musiqili proqramlar keçiriləcək.

Sərgidə 25-dən çox nəşriyyatın iştirakı gözlənilir.



# "Anadolu Ankası - 2025" təlimi başa çatıb





**Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Ankası - 2025" (Anatolian Phoenix - 2025) beynəlxalq axtarış-xilasetmə təlimi uğurla başa çatıb.**

Müdafiə Nazirliyinin Mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a verilən məlumata görə, beynəlxalq təlimdə keçirilən "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə media nümayəndələri və rəsmi qonaqlar iştirak ediblər.

İştirakçılara təlimin gedişatı barədə statistik məlumatlar verilib, beynəlxalq axtarış-xilasetmə təliminə həsr olunmuş qısametrajlı videogörüntü təqdim edilib.





Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim poliqonunda beynəlxalq təlimə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodların praktiki icrası media nümayəndələri və qonaqlar tərəfindən izlənilib.

Sonra Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Yıldızları" aviaqrupunun təqdimatında nümunəvi uçuşlar keçirilib.

Tədbirin sonunda iştirakçı heyətlər tərəfindən qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə fotoları çəkdirilib.

Qardaş ölkədə keçirilən "Anadolu Ankası - 2025" beynəlxalq axtarış-xilasetmə təlimində Azərbaycan Hərbi Hava Qüvvələrinin şəxsi heyəti yüksək peşəkarlıq nümayiş etdirib.





OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə 2025-ci il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

# Qida asılılığı və onun yaratdığı fəsadlar

**Sağlamlıq üçün alınan enerji ilə sərf olunan enerji tarazlıqda saxlanılmalıdır. Gündəlik qəbul edilən enerji sərf olunandan çox olarsa, o, bədəndə yağ olaraq yığılır və artıq çəkiyə səbəb olur. Piy toxuması kişilərdə bədən çəkisinin 15-18, qadınlarda isə 20-25 faizini təşkil edir, kişilərdə 25, qadınlarda 30 faizi keçdikdə isə piylənmə baş verir.**



Ümumdünya Piylənmə Federasiyasının 2023-cü il hesabatına görə, mövcud tendensiyalar davam edərsə, dünyada piylənmə ilə yaşayan insanların sayının 2035-ci ildə 1,9 milyard nəfər olacağı təxmin edilir ki, bu da hər 4 nəfərdən biri deməkdir. Bu təxmin həm də 2035-ci ildə dünya əhalisinin yarısının artıq çəki və ya piylənmə ilə üzləşəcəyini göstərir. Eyni hesabata görə, 2020-ci ildə hər 11 uşaqdan birinin, 2035-ci ilə qədər isə 400 milyon uşağın piylənmədən əziyyət çəkəcəyi proqnozlaşdırılır.

Artıq çəkinin bir çox səbəbləri olsa da, onlardan ən əsası qida asılılığı hesab edilir. İnsanın yaşaması üçün əsas faktorlardan biri olan qida bəzi hallarda enerji mənbəyi olmaqdan çıxaraq, emosional ehtiyacların təminat vasitəsinə çevrilir. Bu zaman qidalanmaya nəzarət itir və asılılıq yaranır. Qida asılılığında əsas rol oynayan maddələrdən biri dopamindir. Dopamin beyində mükafat və zövq hissini idarə edir. Asılılıq yaradan qidalar dopamin ifrazını artıraraq müvəqqəti zövq və rahatlıq hissi yaradır. Bu hal zamanla vərdişə, daha sonra isə asılılığa çevrilir. Qida asılılığı insanların gündəlik həyatına təsir edən, lakin çox zaman diqqətdən kənarda qalan bir problemdir. Bu halı yalnız iradə zəifliyi kimi qiymətləndirmək səhvdir.

Qeyri-iradi şəkildə qidaya qarşı hədsiz ehtiyac hissinin bioloji, psixoloji və sosial kökləri var. Beyində dopamin və serotonin səviyyələrində disbalans, uşaqlıq travmaları, özünəinam əskikliyi, emosional boşluqlar, televiziya və sosial mediada yüksək kalorili qidaların reklamı insanları həddindən artıq və zərərli qidalanmaya təhrik edir. Davamlı olaraq yüksək kalorili, şəkərli və ya yağlı qidalar qəbul etmək istəyi, doyduqdan sonra belə yeməyə davam etmək, sonra isə günahkarlıq və ya peşmanlıq hissi keçirmək, stres, narahatlıq və ya depressiya zamanı nəzarətsiz yemə davranışları qida asılılığının əlamətləridir. Mütəxəssislər bildirirlər ki, xüsusilə emosional və psixoloji gərginlik altında olan fərdlərdə yemək davranışı rahatlama və qaçış yolu olaraq görülür.

Qida asılılığı piylənmə, yüksək təzyiq, ürək xəstəlikləri, diabet, xərçəng kimi sağlamlıq problemlərinə səbəb ola, həzm sistemi və maddələr mübadiləsinə mənfi təsir göstərə bilər. Türkiyəli tədqiqatçılar son araşdırma nəticələrinə əsaslanaraq bildiriblər ki, Altsheymer xəstəliyi də yalnız genetik deyil. Onların sözlərinə görə, istehlak edilən qidalar beyin sağlamlığına ciddi şəkildə təsir edir və bu təsirlər epigenetik mexanizmlərlə nəsildən-nəslə ötürülür. Piylənmə beyindəki hüceyrələrin daha tez sıradan çıxmasına səbəb olaraq Altsheymer riskini artırır. Eyni fikirləri autizm xəstəliyi haqqında da demək olar. Mütəxəssislər dünyada autizm hallarının artmasını birbaşa qida vərdişləri ilə əlaqələndirirlər.

Həyat tərzini sağlamlaşdırmaqla, qida vərdişlərini dəyişdirməklə bu sağlamlıq probleminin öhdəsindən gəlmək mümkündür. Doymaq hissi barədə siqnalın beyindəki müvafiq mərkəzə çatması təxminən 20 dəqiqə çəkir. Buna görə də yavaş-yavaş yemək insanlara toxluq hissini vaxtında anlamağa kömək edir. Qida kiçik porsiyalarla və böyük olmayan boşqablarda istehlak edilməlidir. Şirniyyat, cips və "fast food"lar orqanizmdəki xoşbəxtlik hormonlarının ifrazını artırdığı və asılılığı gücləndirdiyi üçün onlardan uzaq durmaq məsləhətdir.

Aktiv həyat tərzi, gəzinti, pilates, yoqa və meditasiya məşqləri streslə mübarizə apararaq sözügedən problemi də həll edir. Araşdırmalara görə, işləyən insanlar gün ərzində təxminən 8, həftədə 40, ildə isə 2 min saatını masa arxasında çalışaraq keçirirlər. Ofisdaxili qidalanma isə piylənmə riskini daha da artırır. Fiziki fəaliyyət isə sağlam çəki saxlamağa kömək edir, bu da öz növbəsində immunitet sisteminə yaxşı təsir edir.

Gündəlik su istehlakı da unudulmamalıdır. Susuzluq hissi tez-tez aclıq hissi ilə qarışdırıldığı üçün gün ərzində kifayət qədər su içməyən insanlar əvvəlcə qidaya müraciət edirlər. Bütün bunlar kömək etmədikdə isə dietoloq və həkimə müraciət etməklə qida asılılığından tamamilə yaxa qurtarmaq mümkündür.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Fransada etirazlar yenidən baş qaldırır

## E.Makron isə xarici ölkələrdən həbsxana kameraları icarəyə götürmək haqqında fikirləşir

**Fransada minlərlə taksi sürücüsü 5 gündür küçələri bağlamaqda davam edir. Sürücülərin qəzəbi tibbi daşıma nəqliyyatı ilə bağlı yeni qaydalara yönəlib. STV telekanalının xəbərinə görə, hakimiyyət bütün ölkə üzrə bu xidmətlər üçün vahid tarifi təsdiq etməyi planlaşdırır ki, bu da etirazçıların fikrincə, onların gəlirlərini yarıya qədər azaldacaq.**




Mayın 19-dan etibarən taksi sürücülərinin etiraz əlaməti olaraq həyata keçirdikləri çoxsaylı "ilbiz əməliyyatları" bütün nəqliyyatın hərəkətini iflic edib. Sürücülərin Parisdəki hər iki hava limanına gedən magistral yolları bağladıqları da bildirilir.

Bu arada, bir neçə fransız fermerləri qrupu bazar ertəsindən etibarən fəaliyyətlərinə olunan tənzimləyici təzyiqin yumşaldılması tələbi ilə Paris ətrafında yol blokadaları elan edib. Bu barədə BFMTV telekanalı məlumat yayıb. Bildirilir ki, iki aqrar birliyin həmkarlar ittifaqı sənayeyə tənzimləyici təzyiqin yumşaldılmasını tələb etmək üçün etiraz planlarını açıqlayıb. Plana əsasən, fermerlər mayın 26-dan etibarən Paris ətrafındakı yolları bağlayacaqlar.

Kənd təsərrüfatı işçiləri bu yaxınlarda müvafiq komissiyaların təklif etdiyi layihələrdən məyus olduqlarını və bunun 2024-cü ildə keçirilən genişmiqyaslı etiraz aksiyaları zamanı onlara verilən vədlərlə ziddiyyət təşkil etdiyini bildiriblər. Öz problemlərini yenidən gündəmə gətirmək üçün fermerlər paytaxt ətrafındakı əsas yolları qeyri-müəyyən müddətə blokadaya almağa hazırlaşırlar. Ötən bazar ertəsi onlar artıq ölkənin şimalında bir neçə etiraz aksiyası keçiriblər.

Bu arada penitensiar sistemdəki böhran Fransa hökumətini radikal tədbirlər barədə düşünməyə vadar edib. Ötən həftə Prezident Emmanuel Makron TF1 telekanalına verdiyi müsahibədə digər ölkələrdəki həbsxanalardan məhbuslar üçün kameraların icarəyə götürülməsini nəzərdən keçirəcəyini bildirib. Çünki yerli islah müəssisələri həddən artıq doludur. Təxminən 83 min məhbus üçün cəmi 62 min yer var. Avropa Şurasının ötən il dərc etdiyi hesabata görə, Fransa həbsxanaların doluluq səviyyəsinə görə Kipr və Rumıniyadan sonra üçüncü yerdədir.

Ölkə daxilində olduğu kimi, Fransa hökumətinin yürütdüyü xarici siyasət də fiaskoya uğrayıb. Polşanın "Mysl Polska" qəzeti yazır ki, Fransa prezidenti Emmanuel Makron özünü müasir Napoleon kimi təsəvvür edir və Avropanı uçuruma aparır. Məqalədə yazılıb: "Avropa özünü geosiyasi baxımdan Napoleonun müasir mücəssəməsi hesab edən bir adamın rəhbərliyi altında müəyyən bir addımla uçuruma doğru yürüyəcək. Polşa da oxşar istiqamətdə gedəcək". Nəşrin qeyd etdiyi kimi, Makron son aylar Ukraynada münaqişənin gərginləşməsinin ən aşkar və birmənalı tərəfdarına çevrilib. Qeyd olunur ki, Ukrayna məsələsində razılığa gəlmək üçün hər hansı diplomatik cəhdi təkzib edən bəyanatlar verən məhz Fransa prezidentidir.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Fikrət, Rasim, Rafiq və Həşim Hüseynovlar, Hacı Məhəmməd Quliyev, Əhmədxan Əhmədov, Azad Rüstəmov, Şamo Mustafayev və Nurəddin İsmayılov keçmiş iş yoldaşları

**AKİF SƏRMƏST OĞLU HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3569
Sifariş 1028

Qiyməti 60 qəpik